YUSİF MƏMMƏDƏLİYEV MÜKAFATI LAUREATLARI

*Xalq arasında biliklər yaymaq, ürəklərdə*
*maarif ziyası yandırmaq hər birimizin*
*muqəddəs işi, mənəvi* borcudur.
*Y.H. Məmmədəliyev*

**FUAD TANRIVERDİYEV**

HAMLET İSAXANLI

# ALİM VƏ QURUCU ÖMRÜ

**(2-ci nəşr)**

*Maarifçilik, milli elmimizin tərəqqisi,*
*dünya şöhrəti qazanması sahəsində göstərdiyi xidmətlərə*
*görə Azərbaycan*
*"Bilik" Maarifçilik Cəmiyyəti*
*İcraiyyə Komitəsinin qərarı ilə*
***hamlet Abdulla oğlu İsayev (İsaxanlı)***
*Yusif Məmmədəliyev adına*
*mükafatla təltif edilmişdir.*

**Hamlet İsaxanlı**
**Alim və qurucu ömrü**

HAMLET ISAXANLI
**The Life Scholar and Greator**

ГАМЛЕТ ИСАХАНЛЫ
Жизнь ученого и созидателя

Redaktoru Elşad Quliyev

Azərbaycan "Bilik" Maarifçilik Cəmiyyəti İcraiyyə Komitəsinin 26 dekabr 1996-cı il 126 saylı qərarına əsasən çap edilir.

Kod 039

ISBN 5-7843-0005-9

**© Khazar University Press**

Mündərncat

İllər... İllər ........................................................................ 5

Məktəb həyatından kiçik yarpaqlar.................................. 8

Yollar. Yol göstərənlər ................................................ 11

“Mənim universitələrimdən biri .................................14

Yeni elmi istiqamət..................................................... 16

Daşlı - kəsəkli dünya.................................................. 20

Alimlər... Rəylər ........................................................ 22

Riyazi nəzəriyyələr .................................................... 26

Vətəndaşlıq əzmi ....................................................... 36

Qəhrəmanlıqdan doğan ruh.......................................... 40

Elm və təhsil düşüncələri ............................................ 45

Xəzər Universitəsi ...................................................... 50

“Xəzərlər qoşalaşdı" və ya dünyanın gözü ilə ...............54

Elmi araşdırmalara geniş yol....................................... 59

“Xəzər”in sorağında.................................................... 64

“Xəzər"də tələbəlik həyatı və məzunluq şərəfi ............. 71

Hamının qəbul etdiyi lider. hamıya bərabər insan ......... 77

İşi sevən, işə yaradıcılıq kimi baxan yoruldum deməz, ruhdan

düşməz ........................................................................84
Riyaziyyat üzrə elmi əsərlərinin siyahısı . ......................93
Digər elmi əsərləri və publisistik yazılarının siyahısı... 103
Redaktorluq etdiyi nəşrlər ......................................... 105
Haqqındakı yazıların siyahısı ..................................... 106

## *İLLƏR... İLLƏR...*

| | |
|---|---|
| 1 mart 1948 | Gürcüstanda anadan olub. |
| 1965 | Orta məktəbi qızıl medalla bitirib. |
| 1965-70 | Azərbaycan Dövlət Universitəsinin mexanika-riyaziyyat fakültəsində oxuyub, oranı fərqlənmə diplomu ilə bitirib. |
| 1970-73 | Moskva Dövlət Universitəsində aspi-ranturada oxuyub.. |
| 1973 | Fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edib |
| 1973-88 | Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, aparıcı elmi işçi, qrup rəhbəri vəzifələrində çalışıb. |
| 1975-76 | Moskva Dövlət Universitetində elmi- tədqiqat işi aparıb. |
| 1979 | Polşa Elmlər Akademiyasının Riyaziyyat İnstitutunda mühazirələr oxuyub. |
| 1979-81 | Azərbaycan Dövlət Universitəsi funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrasının baş müəllimi işləyib. |
| 1981-82 | SSRİ Elmlər Akademiyası V.A.Steklov adına Riyaziyyat İistitutunda (Moskva) elmi- |

tədqiqat işi aparıb.

| | |
|---|---|
| 1983 | SSRİ Elmlər Akademiyası V.A.Steklov adına Riyaziyyat İnstitutunda fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi almaq üçün doktorluq dissertasiyası müdafiə edib. |
| 1985 | Kanadada Kalqari Universitəsində işləyib. |
| 1985-97 | Müxtəlif qitələrdə 30-dan çox ölkənin tanınmış universitə və elm mərkəzlərində mühazirələr oxumuş, çoxsaylı beynəlxalq konfranslarda iştirak etmişdir, |
| 1988-90 | Leninqrad Maliyyə-İqtisad İnstitutu Bakı filialının riyaziyyat kafedrasının müdiri vəzifəsində işləyib |
| 1990-91 | Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamına əsasən Bakıda İngilisdilli Universitənin yaradılması üçün hazırlıq işləri aparıb.` |
| 18.03.91 | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 41 saylı qərarına əsasən yaradılan İngilisdilli Azərbaycan Universitəsinə (indiki Xəzər Univer- sitəsinə) başçılıq etməyə başlayıb |
| 1990-92 | Marmara (İstanbul, Türkiyə) Universitəsinin professoru və Anadolu (Eskişehir, Türkiyə) Universitəsinin məsləhətçi professoru vəzifələrində işləyib. |
| 1976-83 | Riyaziyyat üzrə elmi əsərləri SSRİ Elmlər Akademiyasında bir neçə dəfə ən yaxşı elmi-tədqiqat işləri siyahısına daxil edilib. |
| 1993 | “Xəzər” teleşirkətini təsis etmişdir. |
| 1994 | Londonda nəşr olunan Debret "Keçmiş Sovet İttifaqında kim kimdir?" ensiklopediyasına |

daxil edilib, haqqında geniş yazı verilib.

1994 Elmi-tədqiqat işlərinə və təhsil sahəsində xidmətlərinə körə Yusif Məmmədəliyev adına mükafatla təltif edilib.

1995 Public Voices” (The Public Performance Press New York) jurnalı (ABŞ) redaksiya heyətinin üzvü seçilmişdir.

1995 Beynəlxalq Qlobal Keyfiyyət Menecmenti (London) mükafatına layiq görülüb-

1995 "Khazar View” qəzetinin əsasını qoymuşdur, baş redaktorudur.

1995 Amerika İctimai İdarəetmə Cəmiyyətinin (The American Society for Public Administration) üzvü seçilmişdir.

1996 Azərbaycan Respublikası Rektorlar Şurası sədrinin müavini seçilmişdir.

1997 “Khazar Journal of Mathematics)” (“Xəzər riyaziyyat jurnalı”) adlı ingilisdilli elmi-tədqiqat dərgisini təsis etmişdir, onun baş redaktorudur.

1997 “Azerbaijani Studies - Azərbaycan araşdırmaları” adlı elmi-tədqiqat dərgisini təsis etmiş və onun baş redaktorudur.

1997 Avro-Asiya fondu (ABŞ) Qafqaz direktorlar şurasına üzv seçilmişdir

.

# *MƏKTƏB HƏYATINDAN KİÇİK YARPAQLAR*

Yaddaşı var illərin. Yaxşını da unutmur, yamanı da. Hərdən üz tutur adama, hərdən üz çevirir. Acılı, şirinli nə varsa, yazır tale kitabəsinə. Sətirbəsətir...

...Hamlet Abdulla oğlu İsayev (İsaxanlı)...

Fərəh dolu, keşməkeşli illəri az olmayıb ömür-gün yollarında.

O, Gürcüstanın Qarayazı (indiki Qardabani) rayo- nunda riyaziyyatçı-müəllim ailəsində dünyaya göz açıb. Təzəcə başlanan 1948-ci il mart ayının birinci günü. Qarayazı meşəsinin yaxınlığındakı Kosalıda. Kosalı ilə onun qapıqonşuluğunda yerləşən Nəzərli əvvəllər Dəmirçi-Hasanlının iki məhəlləsi olub. Sonralar böyüyüb ayrılıblar. Ayrılsalar da, sevincləri, dərdi-sərləri eyni qalıb. Qardabani rayonunun gün-güzəran yollarında çiyin-çiyinə addımlayıblar. Meyvə bağları bir, üzümlükləri bir. Günəşli, yağışlı, küləkli...

***Yaddaşın xatirə gündəliyindən:***

*"...Məktəbə tez getmşəm. Özü də təsadüfən. Hələ yaşım çatmamışdı. Qohumumuz Elmxanı yola sala-sala gedib məktəbə çıxmışam. Tək qayıtmaq istəməmişəm. Müəllim mənə də dəftər, qələm verib. Yazmışam. oxumuşam. Deyilənə görə,*

*eşitdiklərimi tez qavramışam. O gedən birinci rübü başa vurmuşam. Atam yalnız bundan sonra oxumağıma qərar vermiş və... birinci sinif əlaçısı olmuşam. Məni birincidən birbaşa üçə keçirmək istəyib- lər... Atam razı olmayıb: "Uşaq təbii yolla inkişaf etməlidir", - deyib.*

...Bir dəfə qışda bərk qar yağırdı. Gediş-gəliş çətin idi. Birinci sinif şagirdi balaca hamlet evə tək qayıtmağa çəkindi. Qonşu uşaqlar evə onlarla getməyi məsləhət gördülər. Öz siniflərinə gətirdilər. Boş yerlərin birində oturdu. Hər şey maraqlı idi. Necə olsa da beşinci sinif idi. Hesab dərsi idi. Müəllim çətin məsələ vermişdi. Sinfə sakitlik çökmüşdü. Hamının başı tapşırığın yerinə yetirilməsinə qarışmışdı. Darıxdı. Hamlet də özlüyündə məsələni həll etməyə çalışdı. Nə vaxt əlini qaçdırdığını heç özü də bilmədi. Müəllim sinifdən çıxmaq istədiyini zənn etdi.

- Eşiyə çıxmaq istəyirsən?
- Xeyr... Məsələnin cavabını demək istəyirəm...

Müəllim təəccüblə onun üzünə baxdı. Marağını gizlədə bilmədi.

- Buyur, görək!- dedi.

Yazı taxtasına yaxınlaşdı və məsələni həll etdi.

Belə hadisələr məktəb illərində çox olub.

***Yaddaşın xatirə gündəliyindən:***

*"həvəslə oxuyurdum bütün dərsləri. Amma yadıma gəlmir ki, atam bircə dəfə də olsun məni tərifləsin, əksinə, həmişə "daha səliqəli", "daha mütəşəkkil ol", - deyərdi.*

*Tay-tuşlarımdan fərqlənmirdim. Azca davakarlığım da vardı, saatlarla yorulmadan futbol oynamağım da. Şahmatda gücümü sınamadığım dostum qalmamışdı.*

*Bədii ədəbiyyatdan həzz alırdım. Yaşımın azlığına baxmayaraq, Azərbaycan, Şərq, Rus və Qərb ədəbiyyatı klassiklərinin əsərlərini aludəçiliklə oxuyurdum. Viktor Hüqo*

*ən sevimli yazıçılarımdan biri idi. "Səfillər"ini dönə-dönə baş vurmuşdum. Hər dəfə də məni qəribə həyəcan hissi bürüyüb. Azərbaycan yazıçılarından Cəfər Cabbarlını çox sevirdim.*

*Dördüncü sinifdən başlayaraq özüm də yazmağa başladım. Gücümü şerdə də sınadım, nəsrdə də. Dram da yazdım... Onları "ilk kitab" şəklində topladım. Mehman muəllimə göstərdim. O, mənim sevimli müəllimim idi. Çox bəyəndi. Yazılarımı Bakıya aparmağı atama məsləhət gördü. Bunu eşitdim. Utandım. Əvvəlcə yazılarımı gizlətdim. Sonra... məhv elədim.."*

Məktəb illərində maraq dairəsi geniş olub. Coqrafiya ilə, kimya ilə maraqlanıb. Kimya müəllimi Yasin Bünyadzadənin sevimlisi olub. Gürcüstanda keçirilən bir neçə kimya olimpiadasında iştirak edib. Müvəffəqiyyət qazanıb. Kimyaçı olmaq arzusu ilə də yaşayıb. Ədəbiyyatçı olmaq, jurnalist olmaq arzuları qəlbində özünə yuva salıb. Ədəbiyyatdan sərbəst mövzuda yazdığı işləri müəllimləri çox bəyənər, həmişə hər yerdə bu barədə söhbət açardılar. Amma riyaziyyata olan istəyi hər şeyi üstələyib. Beşinci sinifdən başlayaraq riyaziyyatın hamıya görünməyən gözəlliyi onu özünə bağlayıb. Yəqin ki, o vaxtlar yaşına tən gələn qayğılarla, fərəhlərlə yaşayan Hamletin heç ağlına belə gəlməzdi ki, Tanrı ona gözəl fitri istedad bəxş etmişdir. Riyaziyyatda açacağı uca üfüqlər onun adı ilə bağlanacaq.

Bu, gələcəkdə olacaqdı. Hələliksə...

## *YOLLAR. YOL GÖSTƏRƏNLƏR*

Məktəbi 1965-ci ildə qızıl medalla bitirib, Azərbaycan Dövlət Universitəsinin mexanika-riyaziyyat fakültəsinə daxil olur.

***Yaddaşın xatirə gündəliyindən:***

*"...Universitəyə qızıl medalçı kimi bir imtahandan beş alaraq qəbul olundum. Elə ilk illərdən mühazirə və seminarlardan əlavə, monoqrafiya və elmi jurnalları araşdırmağa, öz üzərimdə çalışmağa başladım. Zahid Xəlilov, İbrahim İbrahimov, Əşrəf Hüseynov, Qoşqar Əhmədov, Arif Babayev kimi görkəmli Azərbaycan riyaziyyatçılarının mühazirələrini dinlədim. Moskvadan qayıtmış tanınmış riyaziyyatçı Mirabbas Qasımovun elmi seminarlarında fəal iştirak etdim.*

*Özüm elmi-referativ seminar yaratdım. Kurs yoldaşlarımı, istedadlı aşağı kurs tələbələrini bu işə cəlb elədim. Müəyyən riyazi istiqamətləri dərindən öyrənməyə çalışdıq.*

*Riyaziyyat həyatımdırsa, tarix ömür-gün dostumdur. Elə tələbəlikdən onu böyük maraq və ehtirasla öyrənirdim. Bu həvəs indi də məndə yaşayır. Universitədə də, sonralar Moskvada aspiranturada oxuyanda da Şumer və Assuriya, qədim İran, Hun və türklərin tarixini öyrənmişəm. Rus, ingilis,*

*fransız və türk dillərində tədqiqat əsərlərini, mənbələri araşdırmışam. Bu əsərləri sürətlə, acgözlüklə oxuyur, qeyd və mülahizələrimi yazırdım.*

*Gecəyarısı həyatım yenə də bədii ədəbiyyatla dolu idi. Vaxtımın az, gözəl əsərlərin isə çox olması tələbəlik dövrünün, elə indiki günlərimin də əsas ziddiyyətlərindən biridir. Fəlsəfə, elm tarixi və düşüncə tarixi ilə də çox maraqlanırdım. Böyük filosofları, fəlsəfi cərəyanları, təbiətşünaslıqda inqilabi kəşflər etmiş dahilərin fikir dunyasını anlamağa, duymağa can atırdım. Görkəmli filosof Camal Mustafayevlə söhbətlərim məni çox ruhlandırırdı. Atamın yaxın dostu, sirdaşı olan bu insan öz şəxsiyyəti, mənəviyyatı və kəskin sözü ilə mənə klassik filosofları xatırladırdı. İdman sevgim şahmat, futbol, güləş arasında çaş-baş qalmışdı.*

*Ə'laçı təqaüdü alırdım."*

Universitəni də fərqlənmə diplomu ilə bitirdi. Diplom işini bəyənən Mirabbas müəllim onu o zaman Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun direktor müavini işləyən Fərəməz Maqsudovun yanına apardı. Fərəməz müəllim qısa söhbətdən sonra Hamleti işə götürdü.

Laborant... kiçik elmi işçi... aspirant... Bir çox mə'zunların atdığı addımlar...

***Yaddaşın xatirə gündəliyindən:***

*"Bu uğurlarıma görə mən atama da çox borcluyam. Onun tövsiyələri, zəhmi mənə hər işdə kömək edirdi. Əslində riyaziyyatı seçməyimdə onun və... görkəmli pedaqoq, ədəbiyyatçı Əliyar Qarabağlının tövsiyələri həlledici olmuşdur. Altıncı sinifdə oxuyarkən qış tətilində atam məni Bakıya apardı (O, bu zaman Azərbaycan Pedaqoji İnstitutunda qiyabi təhsil alırdı). Ədəbiyyata böyük həvəsimi görən atam məni Əliyar müəllimə təqdim etdi, kiçik yazılarım da olduğunu ona danışdı. Əliyar muəllim yarızarafat, yarıciddi gülə-gülə: "A*

*bala, atanın gül kimi sənəti var, bacarırsan, riyaziyyat oxu. Ədəbiyyatı sevirsənsə, yaz, qalan şeylər düzələr. Yazıçıların əksəriyyəpş ədəbiyyat fakultəsini bitirməyiblər, başqa ixtisaslar üzrə təhsil alıblar", - dedi.*

*Bakıdan kəndə qayıdanda bədii kitablarla yanaşı, riyaziyyat üzrə olimpiada məsələləri kitabları almışdım. Yuxarı siniflərdə riyaziyyat muəllimim Yasin Piriyev də məni həvəsləndirdi. Lakin vaxtımı humanitar və təbiət elmləri arasında bölüşdürməkdə sonralar da çətinlik çəkəcəkdim...* ”

Məhz bu ikimənalılıq Hamletin riyaziyyat dünyasında İsayev kimi tanındıqdan sonra qeyri-riyazi sahələrdə İsaxanlı soyadını qəbul etməsinə gətirib çıxaracaqdır. Özünün dediyinə görə, təhsil, tarix, dil, siyasət və s. isqiqamətlərdə yazılarının özü, yəni Hamlet İsayev tərəfindən yazıldığını bildirmək istəmirdi. Aydın məsələdir ki, qısa müddətdən sonra bu “gizli fəaliyyətin” üstü açılmışdı.

# *“MƏNİM UNİVERSİTƏLƏRİM”DƏN BİRİ*

Moskvalı alim, görkəmli riyaziyyatçı A.Q.Kostyuçenkonun yolu Bakıya düşəndə tələbə H.İsayevlə tanış olmuş, çıxışlarını olduqca bəyənmişdi. Elmi tədqiqatlara başlamasında ona kömək edəcəyinə söz vermişdi.

Gənc elmi işçi bu imkandan istifadə etdi. Onun yanına getdi. Aspiranturaya imtahan verdi. Məşhur elm ocağı Moskva Dövlət Universitəsinii mexanika-riyaziyyat fakültəsində iki il oxudu, çalışdı. Axtardı, aradı, öyrəndi. Sentimental səslənsə də, yuxusuz gecələrə, narahat gündüzlərə qatlaşdı. Gələcəyə nikbin gözlərlə baxdı. Özünə, öz gücünə güvəndi. Və zəhməti bəhrəsini ondan əsirgəmədi. Elmi məqalələri "Успехи математических наук" (Riyazi elmlərin uğurları), "Математические заметки" (Riyazi xəbərlər), "Функциональный анализ и его приложении" (Funksional analiz və onun tətbiqləri)... kimi riyaziyyat aləminin tanınmış jurnallarında çap olundu.[1] [2] [3] [4] Tək öz tədqiqat isqiqaməti ilə

1 Исаев, Г. А./ Hamlet Isaxanli. О полноте некоторой части собственных и присоединенных векторов полиноминальных операторных пучков. // Успехи математических наук, 23, вып. I, 1973 г.

2 Исаев, Г. А./ Hamlet Isaxanli. К теории самосопряженных голоморфных оператор-функций. // Успехи математических наук, 29, вып. 3, 1974 г.

3 Исаев, Г. А./ Hamlet Isaxanli. Линейная факторизация полиноминальных операторных пучков. // Математические заметки, 13, вып. 4, 1973 г.

4 Исаев, Г. А./ Hamlet Isaxanli. Числовой образ операторных пучков и краткая полнота по М.В. Келдышу. // Функциональный анализ и его приложения, т. 9,

məhdudlaşmadı. Müasir riyaziyyatın bir çox sahələri ilə maraqlandı, riyazi mədəniyyətini yüksəyə qaldırdı, gələcək elmi işlərinə də zəmin yaratdı. Eyni zamanda Moskva mühitinin digər üstünlüklərindən də bəhrələnməyi unutmadı, sevdiyi baletlərə və operalara məşhur "Большой Театр"da (Böyük Teatr) qovuşdu, Moskvada beyini də, ruhunu da qidalandırdı.

1973-cü ildə aspiranturada təhsil müddəti sona çatmamış namizədlik dissertasiyasını bitirdi və tezliklə müdafiə etdi. Tədqiqatı Sovet İttifaqı Elmlər Akademiyasının illik hesabatında funksional analiz üzrə ən görkəmli işlərdən biri kimi qiymətləndirildi. Görkəmli rus riyaziyyatçısı, Lenin mükafatı laureatı V.B.Lidskiy Hamletin namizədlik dissertasiyasına yazdığı rəydə "Müəllif bu sahədə çox gözəl riyazi metod yaratmışdır", "Dissertasiyadakı üç fəslə ehtiyac yoxdu, tək birinci fəsil namizədlik üçün kifayət edəcək gücə malikdir" və nəhayət, "H.İsayev dərin elmi nəticələr əl- də etmişdir və bunlar namizədlik dissertasiyasına qoyulan tələblərdən açıq-aşkar yuxarıda durur" kimi ifadələr vardır. Opponenti M.Qasımov da öz rəyində bu fikirlə razılaşdı. Müdafiədə çıxış edənlər istedadlı və geniş dünyagörüşünə malik bu gəncin riyaziyyatda öz sözü, öz yolu, öz baxışları olduğunu dönə-dönə vurğuladılar.

вып. I, 1975 г.

## *YENİ ELMİ İSTİQAMƏT*

Keçən əsrin axırları, XX əsrin başlanğıcında riyazi fizikanın inkişafı klassik birparametrli spektral nəzəriyyə ilə yanaşı, çoxparametrli spektral nəzəriyyənin mövcudluğunu ortaya çıxartdı. Bu nəzəriyyənin təməl daşı keçən əsrdə Almaniyanın məşhur Qettinqen elmi məktəbində qoyulub. Lakin riyaziyyatın həmin dövrdəki səviyyəsi bu sahədə uğurlu addımlar atmağa imkan vermirdi. Ara-sıra qiymətli tədqiqatlar aparılsa da, sistemli nəzəriyyə yaranmamışdı. 1968-ci ildə Kanada alimi F.Atkinson riyaziyyatçılara müraciət edərək onları elmin bu sahəsi ilə yaxından maraqlanmağa çağırdı. 1972-ci ildə özü çoxparametrli spektral nəzəriyyəyə giriş rolunu oynayan iri monoqrafiya yazdı.

Bu vaxt H.İsayev namizədlik dissertasiyasını müdafiə etməyə hazırlaşırdı, işləri yaxşı gedirdi. Əlavə vaxtlarında F.Atkinsonun monoqrafiyası ilə ətraflı tanış oldu. Və gələcək riyazi yaradıcılıq həyatının mühüm hissəsini, elmi taleyini yeni bir sahəyə-çoxparametrli spektral nəzəriyyəyə həsr etməyi qərara aldı. Görkəmli Azərbaycan riyaziyyatçısı akademik Zahid Xəlilov da onu ruhlandırdı: "Çox çətin sahədir, amma çox da maraqlı sahədir. Sənin əvvəllər məşğul olduğun məsələlərdən çox fərqli riyazi dil və metodlarla silahlanmalısan. Gücün çatar, orijinal nəticələr əldə edəcəyinə gümanım var."

İki ilə Moskva Dövlət Universitəsinə göndərildi. Mücərrəd riyazi nəzəriyyələri - çoxdəyişənli kompleks analiz, homoloji cəbr, topologiyanı, daha yaxşı tanış olduğu funksional analiz, riyazi fizika və diferensial tənliklər nəzəriyyələrinə aid olan

məsələləri köməyinə çağırdı. Məqalələri "Uspexi matematiçeskix nauk" (Riyazi elmlərin uğurları), "Funksionalvnıi analiz i eqo prilojenii" (Funksional analiz və onun tətbiqləri), "Matematiçeskii sbornik" (Riyazi məcmuə), "Dokladı Akademii Nauk SSSR" (SSRİ Elmlər Akademiyasının məruzələri), “İzvestii Akademii Nauk SSSR" (SSRİ Elmlər Akademiyasının xəbərləri) jurnallarında dərc olundu.[5] [6] [7] [8] [9] [10] [11] [12] [13] [14] [15]Moskvada, Bakıda, Leninqradda, Novqorodda,

[5] Исаев, Г. А./ Hamlet Isaxanli. Числовая область и спектр совместных голоморфных оператор-функции многих комплексных переменных. // Успехи математических наук, т. 32, №6, 1977г.

[6] Исаев, Г. А./ Hamlet Isaxanli. О сингулярных мно- гопараметрических дифференциальных операторах. Теоремы разложений. // Математический сборник, 131 (173), №1 (9), 1986г.

[7] Исаев, Г. А./ Hamlet Isaxanli. К многопараметрической спектральной теории. // Доклады Академии Наук СССР, т.229, №2, 1976 г.

[8] Исаев, Г. А./ Hamlet Isaxanli. О корневых элементах многопараметрических спектральных задач. // Доклады Академии Наук СССР, т. 250, № 3, 1980 г.

[9]Исаев, Г. А./ Hamlet Isaxanli. Разложение по собственным функциям самосопряженных син- гулярных многопара- метрических дифференциальных операторов. // Доклад Академии Наук СССР, т. 260, № 4, 1981 г.

[10] Исаев, Г. А./ Hamlet Isaxanli. К теории индексов дефекта многопараметрических дифферендиальных операторов типа Штурма-Лиувилля. // Доклады Академии Наук СССР, т. 261, № 4, 1981г.

[11] Исаев, Г. А./ Hamlet Isaxanli. Генетические опера- торы и многопараметрические спектральные задачи. // Доклады Академии Наук СССР, т. 268, № 4, 1983 г.

**[12]** Исаев, Г. А./ Hamlet Isaxanli. Разрешимость несамосопряженных линейных операторных систем и множество разложимости многопараметрических спектральных задач. (Совместно с М.С. Алмамедовым). Доклад Академии Наук СССР, т. 282, №3, 1985 г.

[13] Исаев, Г. А./ Hamlet Isaxanli. К теории двупараметрических спектральных задач. (Совместно с М.С. Алмамедовым и А.А. Аслановым). // Доклад Академии Наук СССР, т. 283, №5, 1985г.

[14] Исаев, Г. А./ Hamlet Isaxanli. Спектр Теилора и многопараметрическая спектральная теория для систем операторов. (Совместно с А.С. Файнштейном). // Доклады Академии Наук СССР, т. 297, № 1, 1987

[15] Исаев, Г. А./ Hamlet Isaxanli. О тензорных определителях, связанных с многопараметрическими спектральными задачами. (Совместно с М.С. Алмамедовым и А.А.Аслановым). // Известия Высших учебных заведений “Математика”, № 11 (306) 1987.

Minskdə, Novosibirskdə, Varşavada keçirilən konfrans və simpoziumlardakı elmi məruzələri Hamletə geniş riyazi ictimaiyyətin hörmətini qazandırdı. SSRİ Elmlər Akademiyasının akademikləri və müxbir üzvləri S.M.Nikolskiy, V.S.Vladimirov, A.V.Bitsadze, məşhur alimlərdən B.M.Levitan, V.B.Lidskiy, P.N.Lizorkin, V.A.İlyin, V.A.Sadovniçiy, Polşa riyaziyyatçısı V.Jelyazko, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvləri F.Maqsudov, M.Qasımov tərəfindən yüksək qiymətləndirildi.

Hamlet İsayevin araşdırmalarına, əldə etdiyi uğurlu nəticələrə dünyanın bir çox riyaziyyatçıları öz monoqrafiya və məqalələrində istinad etməyə başladılar. Onun əsərləri inkilis dilinə tərcümə edilib Amerika Birləşmiş Ştatlarında çap olundu.

Kanadada çoxparametrli spektral nəzəriyyə ilə yaxından məşğul olan mütəxəssislərdən P.Braun və P.Bayndinq onun işləri ilə yaxından maraqlandılar.

Onu mühazirə oxumaq üçün 1985-ci ilin payızında üç aylığa Kanadaya dəvət edirlər. Çoxparametrli spektral nəzəriyyənin ağsaqqalı hesab olunan professor Frederik Atkinson onu Torontoya qonaq aparır. ABŞ, Kanada, Çin və Yaponiyanın görkəmli alimləri ilə tanış edir. Həmyerlimizin buradakı çıxışları, silsilə mühazirələri elmi dairələrdə böyük canlanma yaratdı.

Patrik Braun SSRİ Elmlər Akademiyası fizika- riyaziyyat bölməsinin akademik katibi N.N.Boqolyubova məktubunda yazırdı (surəti Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti E.Salayevə, həmçinin Riyaziyyat və Mexanika İnstitutunun direktoru F. Maqsudova göndərilmişdi):

"...1970-ci ildən başlayaraq çoxparametrli spektral nəzəriyyənin tədqiqatı sahəsində böyük fəallıq duyulur. Kanadada mənimlə P.Bayndinqin rəhbərliyi altında qrup

fəaliyyət göstərir. Şotlandiyada professor B.Slimanın qrupu da yaxşı nəticələr əldə edib. SSRİ-də isə Bakının Riyaziyyat və Mexanika İnstitutunda çox fəal və əzmkar qrup işləyir. Onun rəhbəri doktor H.İsayevdir. Neçə il idi ki, biz Bakı qrupu ilə əlaqə yaratmaq istəyirdik. Son bir neçə həftə ərzində ürəkdən sevinirik. Doktor H.İsayevi Kalqariyə dəvət etmək, onunla əməkdaşlığa başlamaq imkanı tapmışıq. H.İsayevin mühazirələrindən çox böyük fayda götürdük. Əminəm ki, o da səfərindən razı qalıb. Bakı ilə əlaqələrimizi kəsməyəcəyik. İsayevlə birlikdə monoqrafiya yazmağı qərara almışıq.

Bir sözlə, onun qısa səfəri bizim tədqiqat həyatımıza böyük töhfə bəxş etdi..."

Hamletin mühazirələri Kanadada ingilis dilində çap olundu və dünya elmi ictimaiyyəti tərəfindən rəğbətlə qarşılandı.[16]

Çoxparametrli spektral nəzəriyyənin vətəni sayılan Kanadada belə nüfuz əldə etmək üçün əsl mütəxəssis, öz sahəsində dərin, ensiklopedik biliyə malik olmaq lazım idi. Bunu F.Atkinsonun Toronto Universitəsində söylədiyi və sonralar Şotlandiyada Dandi Universitəsində beynəlxalq konfransda təkrar etdiyi sözlər bir daha təsdiq edir: "Çoxparametrli spektral nəzəriyyənin ən qiymətli nəticələrini son illər H.İsayev və onun tələbələri almışlar. Qətiyyətlə və çəkinmədən demək olar ki, o, müasir çoxparametrli spektral nəzəriyyənin yaradıcılarından biridir.”

[16] Hamlet Isaxanli. Lectures on multiparameter spectral theory. // The University of Calgary, Department of Mathematics and Statistics, Calgary, Canada, 1985.

həyat lal axan çaya bənzəmir. Keçdiyi yol enişli- yoxuşlu, daşlı-kəsəkli, astanalı olur. Bəlkə də bu, tale yazısının hökmüdür, sezilməyən, duyulmayan, birdən-birə adamla üzbəüz gələn qanunauyğunluğudur.

Gənc alimin də güzəranı o qədər hamar olmayıb. Düzdür, çiskinli, acılı günləri fərəhli günlərindən qat-qat az olub. Amma olub. Şikayət etməyi sevməyən, iradə sahibi bu insanda təəssüf hissi doğurub, ürəyində iz buraxıb...

Xeyirxahları, doğru yol göstərənləri, sevincinə sevinənləri çox olub, amma gözükötürməyənləri də, arxasınca danışanları da, paxıllıq edənləri də əskik olmayıb. Əslində hər bir istedadlı adamın taleyidir bu.

Onun elmi uğurları, riyaziyyatçı açim kimi şöhrəti təəssüf ki, bəzi vəzifəli şəxslərin narahatçılığına səbəb olmuş, onlardakı xeyirxahlıq hissinii kütləşməsinə yol açmışdır. Əlbəttə, Hamlet müəllimin düz danışanlığı, insanları tutduqları yüksək vəzifəyə görə tərifləməkdən uzaqda durması, müəllim kimi prinsipiallığı da ətrafdakı bəzi adamlarda inciklik və narazılıq doğururdu.

Arxasınca yazanlar, yalanlar uyduranlar da çox olub. Lakin Hamlet müəllim bu barədə danışmağı, müzakirə

aparmağı heç vaxt istəməyib, “dünyada o qədər mövzular var ki, niyə onlardan danışmırsınız”, - deyə yarızarafat, yarıciddi belə söhbətlərə imkan verməyib. Şərq məsəlində deyildiyi kimi, əgər düz dayanmısansa, kölgənin əyriliyindən qorxma.

Bəli, Hamlet müəllim maneələri dəf edə-edə öz yolu ilə gedirdi. . .

Azərbaycanda bir zamanlar kiçik bir dəstənin ardı-arası kəsilməz hücumlarına məruz qalan, xaricdəki alimlərin kölgəsində dayanmaqda günahlandırılan Hamleti məhz həmin xarici alimlər dəfələrlə öz ölkələrinə, öz universitələrinə dəvət edir, mühazirələrini təşkil edir, əsərlərini çap edir, onun elmi nəticələrindən faydalanır, onunla birlikdə elmi araşdırmalar aparır, məqalələr yazırdılar.

Daş- kəsək dağ selini yolundan döndərə bilməz.

# *ALİMLƏR... RƏYLƏR...*

H.İsayevin elmi fəaliyyəti öz tutumu, mövzu dai- rəsinin genişliyi ilə diqqəti cəlb edir. Çoxsahəli və çoxistiqamətlidir. Apardığı tədqiqatların, araşdırmaların mənzərəsini təsəvvür etmək üçün öncə görkəmli alimlərin ayrı-ayrı fikirlərinə müraciət edib, sonra isə yenə onların rəylərindən seçilmiş qısa şərhlərlə kifayətlənməli olacağıq.

H.A.İsayevin elmi fəaliyyəti haqqında riyaziyyatçılar tərəfindən hazırlanmış bir arayışdan:

*H.A.İsayev hələ tələbəlik illərindən özunü zəhmətkeş bir tədqiqatçı kimi göstərmişdir. Sonralar o, Moskva riyaziyyat məktəbini keçmiş və müasir riyazi metodları dərindən mənimsəmişdir. H.A.İsayev fəal çalışan və yuksək səviyyəli riyaziyyatçıdır. Onun geniş maraq dairəsi vardır. Mövzunun hərtərəfli öyrənilməsi, öz tədqiqatlarında* ümumi *ilə xüsusini əlaqələndirmə bacarığı H.A.İsayevin elmi fəaliyyətini xarakterizə edən əsas keyfiyyətlərdir. H.A.İsayev dunyada çoxpara- metrli spektral nəzəriyyə sahəsində yazılmış üç monoqrafiyadan (hər üçü ingilis dilindədir) birinin müəllifidir.*

**SSRİ Elmlər Akademiyası Steklov adına Riyaziyyat İnstitutunun direktoru, akademik V.S.Vladimirov:**

*"H.İsayev funksional analiz üzrə məşhur mütə- xəssisdir. Onun bu sahədə apardığı tədqiqatlar xaricdə yaxşı tanınır, elmi çıxışları mütəxəssislər tərəfindən çox bəyənilib".*

**N.A.Voznesenski adına Leninqrad Qırmızı Əmək Bayrağı ordenli Maliyyə-İqtisad İnstitutunun elmi şurası (sədr-RSFSR-in əməkdar elm xadimi Y.A.Lavrikov):**

*"..H.İsayev SSRİ-də və ölkəmizdən kənarda funksional analiz və onun tətbiqi, xüsusilə də çoxparametrli spektral nəzəriyyə sahəsində böyük bir alim kimi tanınır. H.İsayev müasir operatorların ədədi oblastı nəzəriyyəsinin yaradıcılarındandır. İxtiyari tərtibli çoxparametrli sinqulyar diferensial operatorların məxsusi funksiyalar uzrə ayrılması haqqında H.A.İsayev teoremi artıq klassikləşib.*

*H.İsayev operatorların müasir spektral nəzəriyyəsi sahəsində elmi məktəbin yaradıcısıdır..."*

**SSRİ Elmlər Akademiyasının akademiki S. M. Nikolskiy:**

*"H.İsayev riyazi analiz sahəsində çalışan məşhur riyaziyyatçı alimdir. O, funksional analiz və onun tətbiqi sahəsində fundamental tədqiqatlar müəllifidir. Onun çoxparametrli spektral nəzəriyyəyə həsr olunan işləri müasir riyaziyyatın yeni aktual sahəsinin vacib hissəsini təşkil edir və bu sahəyə mühüm töhfədir. Mənə məlumdur ki, işlədiyi sahədə H.İsayev xarici elmi-tədqiqat mərkəzlərilə sıx əlaqə saxlayır. Onun işləri xaricdə yüksək qiymətləndirilir".*

**Moskva Dövlət Universitəsinin rektoru, M.VLomonosov mükafatı laureatı, professor V.A.Sadovniçiy:**

*"Çoxparametrli spektral nəzəriyyə funksional analizin maraqlı və çətin sahələrindən biridir. Bu səbəblə həmin nəzəriyyənin yaradılması mühüm elmi istiqamətdir. Mən bu sahəyə aid çox işlərə rəylər yazmışam, məqalələrin şərhi ilə məşğul olmuşam. Qətiyyətlə deyə bilərəm ki, H.İsayevin bir çox elmi nəticələri xarici alimlər tərəfindən aparılmış tədqiqatları çox-çox arxada qoyub".*

***Lenin mukafatı laureatı,***
***professor V.BLidskiy:***

*"Çoxparametrli spektral nəzəriyyə sahəsində ondan əvvəlki alimlərin gözəçarpan uğurlarına baxmayaraq, H.İsayev bu sahənin ümumi nəzəriyyəsinə və onun konkret gerçəkləşməsinə sanballı elmi töhfələr vermişdir. Qeyd etmək lazımdır ki, bu sahə ölkəmizdə indiyə kimi öz layiqli əksini tapmamışdı".*

***M.VLomonosov mukafatı laureatı, professor***
***A.Q.Kostyuçenko:***

*"H.İsayev ölkəmizdə birinci riyaziyyatçıdır ki, əsası hələ klassiklər tərəfindən qoyulan çoxparametrli spektral nəzəriyyə sahəsini araşdırmağa başlamışdır. O, bu sahəyə böyük töhfə vermiş, mühüm yeni anlayışlar daxil etmiş, çətin hesab olunan nəticələr əldə etmişdir. H.İsayev bu sahənin bir çox bölmələrinin yaradıcısıdır".*

***Lenin mükafatı laureatı,***
***professor B.M. Levitan:***

*"Sovet İttifaqında çoxparametrli spektral nəzəriyyə sahəsində ilk sistematik tədqiqatı H.A.İsayev aparmağa başlamışdır. O, bir sıra çox mühüm nəticələr almışdır".*

***Dövlət mükafatı laureatı,***
***professor A.A. Dezin:***

*"H.A.İsayev çətinliklərin öhdəsindən çox ustalıqla gələn, maraqlı, yeni məsələlər üzə çıxarmağı və həll etməyi bacaran, geniş bilik sahibi olan riyaziyyatçıdır*

## *RİYAZİ NƏZƏRİYYƏLƏR...*

İnsan övladı qədər qədimdir riyaziyyat. İnsanların böyük qismi üçün mücərrəddir, anlaşılmazdır, cansıxıcıdır, sirdir və möcüzədir riyaziyyat. Digər insanlar üçün təbiətin açarıdır, poeziyadır, musiqidir, gözəllikdir riyaziyyat. Riyaziyyatın fövqəladə qüdrətini riyaziyyatçılar və təbiətşünaslar tarix boyu vəsf etmişlər. Qalileyi xatırlayaq: "Təbiətin fəlsəfəsi gözümüz önündə həmişə açıq olan nəhəng bir kitabda yazılmışdır mən Kainatı nəzərdə tuturam. Ancaq onu yalnız təsvir edildiyi dili və yazıları öyrənən adam anlaya bilər. Bu kitab isə riyaziyyat dilində yazılmışdır..."

Yeni kəşflər... tapıntılar... nəzəriyyələr... dünya riyaziyyatçılarının diqqətini cəlb edən yeni müla- hizələr...

Hamlet İsayevin isbat etdiyi teoremlər, elmə daxil etdiyi anlayışlar, qurduğu riyazi nəzəriyyələr bir istiqamətdə deyil. Riyaziyyat elminin müxtəlif sahələrinə nüfuz etmiş, hər birində də uğur qazanmışdır. Burada biz tam kücsüzlüyümüzü dərk edərək sözü yenə riyaziyyatçı alimlərə veririk. Onlar Hamlet İsayevin riyazi yaradıcılığını sözlərlə (düsturlarsız) qısaca aşağıdakı kimi səciyyələndirmişlər.

## *Öz-özünə qoşma olmayan operatorların spektral nəzəriyyəsi*

Alim məxsusi və qoşma vektorlar sisteminin tamlığı haqqında mühüm nəticələr əldə edib. Kvadratik formanın köklərinin paylanması əsasında operatorlar dəstəsinin rezolventinin qiymətləndirilməsinin yeni gözəl metodunu yaradıb (bu cümlə V.B.Lidskiyə məxsusdur). O, kvadratik forma "ölçüsünə" görə öz-özünə qoşma operatorlara yaxın olan operatorlar dəstəsi sinfini müəyyən edib. M.V.Keldış mənada onların çoxqat tamlıq teoremlərini isbat edib. Öz-özünə qoşma olmayan polinominal operatorlar dəstəsinin, həmçinin hiperbolik operator-funksiyaların məxsusi və qoşma elementlərinin müəyyən hissəsinin çoxqat tamlığı və bazisliyini də tədqiq edib. Kəsilməz operatorlar cəbrində operator tənliklərin həll olunmasında alimin əldə etdiyi nəticələr müstəsna əhəmiyyətə malikdir.[17] [18] [19] Onun bu tədqiqatları məşhur sovet və xarici riyaziyyatçılar V.B.Lidskiy, M.Q.Kreyn, N.Qapper (H. Lanqer), A.Friedman (A. Fridman), M.Shinbrot (M. Şinbrot) və başqalarının öz-özünə qoşma olmayan operatorların spektral nəzəriyyəsi sahəsində əldə etdikləri mühüm nəticələri əhəmiyyətli dərəcədə qüvvətləndirib.

[17] Исаев, Г. А./ Hamlet Isaxanli. О полноте некоторой части собственных и присоединенных векторов полиноминальных операторных пучков. // Успехи математических наук, 23, вып. I, 1973 г.
[18] Исаев, Г. А./ Hamlet Isaxanli. Линейная факторизация полиноминальных операторных пучков. // Математические заметки, 13, вып. 4, 1973 г.
[19] Исаев, Г. А./ Hamlet Isaxanli. К теории самосопряженных голоморфных оператор-функций. // Успехи математических наук, 29, вып. 3, 1974 г.

### *Operatorların ədədi oblastları nəzəriyyəsi*

Bu nəzəriyyə spektral analiz və riyaziyyatın başqa bölmələri ilə sıx əlaqədardır. Alim sonlu və sonsuz ölçülü fəzalarda operatorların ədədi oblastları nəzəriyyəsi sahəsində orijinal nəticələr əldə edib.

O, bir neçə kompleks dəyişənlərdən asılı holomorf operator-funksiyaların və holomorf operator-funksiyalar sisteminin ədədi oblastlarını öyrənib. Onların öz-özünə qoşma olmayan operatorların spektral nəzəriyyəsinə maraqlı tətbiqlərini işləyib hazırlamışdır.[20] [21] [22] [23]

Onun bu sahədəki üstünlüyü xarici mütəxəssislər tərəfindən də etiraf edilir. (Məsələn, I.Gohberg, P.Lancaster, L. Rodman, matris rolinominals, Akad. Press, 1982, İ. Qoxberq, P. Lankaster, L. Rodman, matris polinomlar, Akad. Press, 1982 monoqrafiyasına baxmaq kifayətdir).

Normal operatorlardan fərqli olan xətti operatorların ədədi oblastlarının həndəsi təsviri yalnız ikiölçülü fəzalarda tədqiq olunmuşdu. H.İsayev və onun tələbələri tərəfindən kəşf edilən "enmə üsulu" matrisin elementləri dilində homotopiya dəqiqliyi ilə istənilən sonlu ölçülü fəzalarda ədədi oblastları

[20] Исаев, Г. А./ Hamlet Isaxanli. Числовой образ операторных пучков и краткая полнота по М.В. Келдышу. // Функциональный анализ и его приложения, т. 9, вып. I, 1975 г.

[21] Исаев, Г. А./ Hamlet Isaxanli. Разделение числовой области многопараметрических спектральных задач. // Известия Академии Наук Азербайджанской ССР, №5, 1976 г.

[22] Исаев, Г. А./ Hamlet Isaxanli. Числовая область и спектр совместных голоморфных оператор-функции многих комплексных переменных. // Успехи математических наук, т. 32, № 6, 1977 г.

[23] Исаев, Г. А./ Hamlet Isaxanli. Распределение корне квадратичных форм, спектр и кратная полнота корневых векторов оператор-функции. (Совместно с Н.Г. Вагабовым). // Известия Академии Наук Азербайджанской ССР,№ 5, 1978 г.

təsvir etməyə imkan verib.

Bu yeganə nəticə öz növbəsində matrislərin məxsusi qiymətlərinin lokalizasiyası nəzəriyyəsinə tətbiq olunub.[24] [25] Bütün kompakt operatorları özündə saxlayan bir sinif operatorların ədədi oblastlarının təsviri də maraqlı elmi nəticə kimi qeyd edilməlidir.[26] [27]

## *Çoxparametrli spektral məsələlərin ümumi nəzəriyyəsi*

Bu nəzəriyyə operatorların klassik spektral nəzəriyyəsinin yeni vacib çoxölçülü analoqudur; çoxölçülülük bir neçə spektral parametrlərin mövcudluğu ilə əlaqədardır. Keçmiş Sovet İttifaqında bu nəzəriyyə H.İsayev tərəfindən inkişaf etdirilmişdir. 1975-ci ildən başlayaraq o, funksional analiz və riyazi fizikanın bu yeni vacib sahəsinə öz töhfələrini verib. Bu nəzəriyyənin bir sıra anlayışları məhz onun tərəfindən araşdırılıb. Başlanğıc fəzaların tenzor hasilində təsir edən "ayrıla bilən operator sistemini" geniş tədqiq edib. Bu sistemin yerdəyişə bilən olması (kommutativliyi) ilə bağlı məsələləri ətraflı və dəqiq öyrənib.

Çoxparametrli spektral nəzəriyyənin əsas obyektlərini ayrıla bilən operatorlar sistemi vasitəsi ilə xarakterizə edib. Tələbələri ilə birlikdə tenzor determinantların köməyi ilə

[24] Исаев, Г. А./ Hamlet Isaxanli. О геометрии числовой области линейных операторов в конечномерных евклидовых пространствах. (Совместно с А.А. Абдурахмановым). // Известия Академии Наук Азербайджанской ССР, № 2, 1985 г.

[25] Исаев, Г. А./ Hamlet Isaxanli. On the numerical Range of Finite Matrix (With O. A. Avshalumova). // Doga, Turkish Journal of Mathematics, v. 16, № 1,1992.50-61.

[26] Исаев, Г. А./ Hamlet Isaxanli. Аналитические свойства границы числовой области операторов в гильбертовом простран- стве. (Совместно Т.К). Кулиевым). // Доклады Академии Наук СССР, т. 291, № **5**, 1986 г.

[27] Исаев, Г. А./ Hamlet Isaxanli. On the geometry of numerical range of linear operators. (With T.Yu Kuliyev). // Baku International Topo1ogical Conference, Abstracts (part II), 1987.

çoxparametrli məsələlərin təyin oluiması şərtlərini müfəssəl tədqiq edib.[28] [29] [30] [31] [32] [33] [34] [35] [36]

Qeyri-məhdud operatorlu öz-özünə qoşma çoxparametrli məsələlər üçün spektral ayrılış məsələlərini araşdırıb. H.İsayev və onun tələbələri tərəfindən ayrıla bilən operatorlar sisteminin spektral, həmçinin birgə spektral ölçülərinii effektiv qurulması üsulu təklif edilib. Bu, əvvəllər yalnız bir sinif ikiparametrli məsələlər üçün həll edilmişdir. 30 ildən

[28] Исаев, Г. А./ Hamlet Isaxanli. О корневых элементах многопараметрических спектральных задач. // Доклады Академии Наук СССР, т. 250, № 3, 1980 г.

[29] Исаев, Г. А./ Hamlet Isaxanli. Введение в обшую многопараметрическую спектральную. // Сборник “Спектральная теория операторов”, выпуск 3, Баку, 1980г., “Элм”.

[30] Исаев, Г. А./ Hamlet Isaxanli. Генетические операторы и многопараметрические спектральные задачи. // Доклады Академии Наук СССР, т. 268, № 4, 1983 г

[31] Исаев, Г. А./ Hamlet Isaxanli. Разрешимость несамосопряженных линейных операторных систем и множество разложимости многопараметрических спектральных задач. (Совместно с М.С. Алмамедовым). // Доклад Академии Наук СССР, т. 282, № 3, 1985г.

[32] Hamlet Isaxanli. Lectures on multiparameter spectral theory. // The University of Calgary, Department of Mathematics and Statistics, Calgary, Canada, 1985.

[33] О некоторых задачах многопараметрической спектральной теории. // Препринт, Институт Физики Академии Наук Азербайджанской ССР, № 322, Баку, 1987г.

[34] Исаев, Г. А./ Hamlet Isaxanli. О тензорных определителях, связанных с многопараметрическими спектральными задачами. (Совместно с М.С. Алмамедовым и А.А. Аслановым) // Известия Высших учебных заведений “Математика”, № 11 (306) 1987г.

[35] Hamlet Isaxanli. Glimpses of Multiparameter Spectral Theory. // University of Dundee, Department of Mathematics & Computer Sciences, Eleventh Dundee Conference. On Differential Equations, 3-6 Ju1y 1990, Abstracts, p.10.

[36] Hamlet Isaxanli. Glimpses of Multiparameter Spectral Theory. // Proceedings of the eleventh Dundee v. III, Conference, 1990, Pitman Research Notes in Mathematics, series 254, Longman Scientific Technical 1991 pp. 106-125.

artıq öz həllini gözləyib.[37] [38] [39] [40] [41] [42] [43] [44] H.İsayev Kanada riyaziyyatçısı P.Braunla birgə simmetrik çoxparametrli spektral məsələlərin genişlənmə nəzəriyyəsinin əsasını qoyub.[45]

## *Differensial operatorların çoxparametrli spektral nəzəriyyəsi*

H.İsayev bu nəzəriyyə sahəsində mühüm nəticələr əldə edib. Dəyişənlərin ayrılması üsulu ilə riyazi fizikanın çoxsaylı sərhəd məsələlərinin və həmçinin yüksək transendent

[37] Исаев, Г. А./ Hamlet Isaxanli. К теории двупараметрических спектральных задач. (Совместно с М.С. Алмамедовым и А.А. Аслановым). // Доклад Академии Наук СССР, т. 283, № 5, 1985г.

[38] Hamlet Isaxanli. Lectures on multiparameter spectral theory. // The University of Calgary, Department of Mathematics and Statistics, Calgary, Canada, 1985.

[39] Hamlet Isaxanli. Multiparameter spectrums. // An intern atonal Conference «Operator Theory: Advances and Applications". Program Abstracts, Alberta, Canada, August 22th-26th, 1988, University of Calgary, p.48.

[40] Исаев, Г. А./ Hamlet Isaxanli. Аналитико-геометрическая структура многопараметрического спектра. (Совместно с М.С. Алмамедовым и А.А. Аслановым). // Всесоюзная школа- конферендия "Современные проблемы теории функции" (19-29 мая 1989 г.). Тезисы докладов, Баку, 1989.

[41] Hamlet Isaxanli. Multidimensional complex -Analytical View on the joint singularity of the system of Multiparameter operators and its applications. // Mathematisches Forschingsinstitut Oberwolfach, Tagungsbericht 45/1989, Linear operators and Applications, 22, 10 bis 28.10.1989.

[42] Hamlet Isaxanli. Glimpses of Multiparameter Spectral Theory. // University of Dundee, Department of Mathematics & Computer Sciences, Eleventh Dundee Conference. On Differential Equations, 3-6 Ju1y 1990, Abstracts, p.10.

[43] Hamlet Isaxanli. Glimpses of Multiparameter Spectral Theory. // Proceedings of the eleventh Dundee v. III, Conference, 1990, Pitman Research Notes in Mathematics, series 254, Longman Scientific Technical 1991 pp. 106-125.

[44] Hamlet Isaxanli. A multidimensional complex - Analytical view on the Multiparameter Spectrum and the Construction of the spectral Measures (With A.A. Aslanov). // Khazar Journal of Mathematics, № 1, 1997.

[45] Hamlet Isaxanli. Symmetric multiparameter problems and deficiency index theory. (with P.J.Browne). // Proceeding Edinburgh Mathematical Society, 1988, 31, 481-488

funksiyalar nəzəriyyəsi məsələlərinin həllinə kömək edən diferensial tənlikləri araşdırıb.

Alim tərəfindən tələbələri ilə birlikdə tamamilə yeni, maraqlı, çoxparametrli ossilyasiya teoremləri isbat edilib; çoxparametrli Şturm-Liuvill tənliklərinin defekt indeksləri haqqında məsələləri tədqiq edib. Onun təklif etdiyi üsul çoxparametrli operatorlar sisteminin genişlənməsi nəzəriyyəsi məsələlərinin qoyuluşu və həllinə həlledici təkan verib. İstənilən tərtibli çoxparametrli sinqulyar diferensial operatorların məxsusi funksiyalar üzrə ayrılışı teoremini xüsusilə qeyd etmək lazımdır. Belə ki, xüsusi halda bütün həqiqi oxda verilmiş Şturm-Liuvill çoxparametrli tənliklərinə tətbiqi zamanı bu teorem P.Braun tərəfindən 1974-cü ildə (P.Browne, Lect. Not. Math., 415, 81-94) irəli sürülən çətin problemin

həllinə gətirib çıxarıb.[46] [47] [48] [49] [50] [51] [52] [53] [54] [55]

***Birgə spektrlər nəzəriyyəsi və onun tətbiqi***

Mərkəzi obyekti tanınmış Amerika riyaziyyatçısı Con Teylorun adı ilə bağlı spektr və çoxölçülü holomorf funksional hesab olan birgə spektrlər nəzəriyyəsi əsasən 70-ci illərdə

[46] Исаев, Г. А./ Hamlet Isaxanli. Осцилляционные теоремы для многопараметрических спектральных задач, связанных с дифференциальными уравнениями второго порядка. (Совместно с Б.П.Аллахвердиевым). // Сборник “Спектральная теория операторов”, выпуск, 3, Баку, 1980г., издательство “Элм”.

[47] Исаев, Г. А./ Hamlet Isaxanli. Разложение по собственным функциям самосопряженных син- гулярных многопара- метрических дифференциальных операторов. // Доклад Академии Наук СССР, т. 260, № 4, 1981г.

[48] К теории индексов дефекта многопараметрических диффeрендиальных операторов типа Штурма-Лиувилля. // Доклады Академии Наук СССР, т.261, №4, 1981г.

[49] Исаев, Г. А./ Hamlet Isaxanli. Осцилляционные теоремы для многопараметрических задач с краевыми условиями, зависяшими от спектральных параметров. (Совместно с Б.П. Аллахвердиевым). // Известия Академии Наук Азербайджанской СССР, №6, 1981г.

[50] Hamlet Isaxanli. Lectures on multiparameter spectral theory. // The University of Calgary, Department of Mathematics and Statistics, Calgary, Canada, 1985.

[51] Исаев, Г. А./ Hamlet Isaxanli. К теории разложении по собственным функдиям многопараметрических дифференциальных операторов. // Всесоюзная конференция “Дифференциальные уравнения и их приложения”, Ашхабад, 1986г.

[52] Исаев, Г. А./ Hamlet Isaxanli. О сингулярных многопараметрических дифференциальных операторах. Теоремы разложений. // Математический сборник, 131 (173), № 1 (9), 1986 г.

[53] Исаев, Г. А./ Hamlet Isaxanli. О квадратичной интегрируемости произведения решении многопараметрических уравнений Штурма-Лиувилля. // Сборник “Спектральная теория операторов”., выпуск 7, Баку, 1986г., “Элм”.

[54] Исаев, Г. А./ Hamlet Isaxanli. О некоторых задачах многопараметрической спектральной теории. // Препринт, Институт Физики Академии Наук Азербайджанской ССР, № 322, Баку, 1987г.

[55] Hamlet Isaxanli. Glimpses of Multiparameter Spectral Theory. // Proceedings of the eleventh Dundee v. III, Conference, 1990, Pitman Research Notes in Mathematics, series 254, Longman Scientific Technical 1991 pp. 106-125.

yaranıb. Bu nəzəriyyə və çoxparametrli spektral nəzəriyyə bir-birindən asılı olmadan paralel şəkildə inkişaf edib. Məhz H.İsayev və onun tələbələri bu iki çoxölçülü nəzəriyyəni ümumi çoxparametrli spektral nəzəriyyə adı altında birləşdirməyə müvəffəq olublar. Məhz alim tərəfindən tədqiq edilən çoxparametrli operatorlar sisteminin ayrılan operatorlar ailəsinin spektrini Koşul kompleksi məsələlərinə qovuşdurmaq mümkün olub. Bu sahədə dərin araşdırmalar sübut edir ki, H.İsayev tərəfindən kəşf olunan spektrin və Con Teylorun ayrılan operatorlar sisteminin birgə spektrinin üst-üstə düşməsi üçün tələb olunan şərtlər zəruri və kafidir. Bu əlaqə fredholmlu çoxparametrli məsələ, mühüm spektr və çoxparametrli operatorlar sisteminin indeksini (Koşul kompleksinin uyğun kohomologiyasının sonlu ölçülüyü vasitəsilə) öyrənməyə imkan verib.[56] [57] [58] [59] [60]

Koşul kompleksi terminində müxtəlif çoxparametrli spektral məsələlərin şərhi hər iki nəzəriyyəni əhəmiyyətli dərəcədə irəli aparmaqa imkan verib. Həmin nəzəriyyələrin gələcəkdə daha maraqlı tətbiqlərini tapacağı ehtimal olunur.

...hamlet İsayev və onun tələbələri *iqtisadiyyatın riyazi*

[56] Исаев, Г. А./ Hamlet Isaxanli. О совместных спектрах конечных коммутативных семейств. (Совместно с А.С. Фаинштейном). // Сборник "Спектральная теория операторов", выпуск 3, Баку, 1980 г., "Элм".

[57] Hamlet Isaxanli. Lectures on multiparameter spectral theory. // The University of Calgary, Department of Mathematics and Statistics, Calgary, Canada, 1985.

[58] Исаев, Г. А./ Hamlet Isaxanli. Спектр Тейлора и многопараметрическая спектральная задача для системы операторов. (Совместно с А.С. Файнштейном). // Вторая Всесоюзная школа по теории операторов в функдиональных пространствах. Тезисы докладов, ч.2, Челябинск, 1986 г.

[59] Исаев, Г. А./ Hamlet Isaxanli. Спектр Теилора и многопараметрическая спектральная теория для систем операторов. (Совместно с А.С. Файнштейном). //Доклады Академии Наук СССР, т. 297, № 1, 1987 г.

[60] Hamlet Isaxanli. Glimpses of Multiparameter Spectral Theory. // Proceedings of the eleventh Dundee v. III, Conference, 1990, Pitman Research Notes in Mathematics, series 254, Longman Scientific Technical 1991 pp. 106-125.

*modelləri* sahəsində də çalışırlar.[61] [62]

...Bu nəzəriyyələr ingiliscə nəşr etdiyi "Xəzər riyaziyyat jurnalı", uzaq ölkələrdəki və yanındakı istedadlı tələbələri onun düşüncələrindəki daimi hərəkətə, axtarışa, qətiyyətinə, gücünə, inamına şübhəsiz bir işarədir.

[61] Исаев, Г. А./ Hamlet Isaxanli. Об одном классе положительных операторов в пространстве ограниченных бесконечных последовательностей (Совместно с Э.В. Караевым). // Семинар-Совещание по функциональному анализу и его приложении, посвяшенное памяти академика З.И. Халилова (1911- 1974), Баку 1991, стр. 35.

[62] Исаев, Г. А./ Hamlet Isaxanli. A generalization Leontief's input output model (With. E.V. Garayey). // Всесоюзная конференция "Негладкий анализ и его приложение к математической зкономике". Тезисы докладов, Баку. "Элм",1991г.

## VƏTƏNDAŞLIQ ƏZMİ

Dünyada heç kim təkcə özü üçün yaşamır. Çətin elə bir adamsevməz tapılsın ki, onun üçün ayrılan ömür yolunu tək, tənha keçsin. Bir ailədə, bir binada, bir kənddə, bir şəhərdə- insanların əhatəsində yaşamasın. Onların dərdi-sərinə, sevincinə ilahidən verilən vergisi həddində azmı-çoxmu şərik olmasın. Ürəklərinin odunu göylərdən, günəşdən, adamlara məhəbbətdən alan qəlbiqaynarlarsa bütün varlıqları ilə yaşadığı yurd-yuvanın gün-güzəranına bağlanırlar. Qayğıları ilə yaşayırlar.

Ölkədə gərgin ictimai-siyasi vəziyyət yaranmışdı. Sovet hökuməti düşdüyü böhrandan çıxmağa, əyilmiş işi düzəltməyə can atırdı. Bayrağında "Azadlıq, Dostluq, Bərabərlik" sözlərinin yazılmasına baxmayaraq, hər an SSRİ xalqlarının, eləcə də kommunizmə pənah kətirən, hüdudlarından kənarda yaşayan xalqların sosializm qəlibinə uyğun kəlməyən düşüncələrini boğmağa, milli-azadlıq istəklərinin qarşısına ordusunun kücü ilə sədd çəkməyə hazır idi. Macarıstan... Çexoslovakiya... Gürcüstan... Pribaltika... Bu siyahını hələ çox davam etmək olar. Və ən nəhayət... Azərbaycan. Bu ölkələrin əhalisi "sülh" ləşgərinin nə olduğunu öz qanı bahasına sınaqdan çıxartdı...

1990-cı ilin yanvarı yaxınlaşırdı. Respublikamızın ictimai-siyasi səmasını ağır qara buludlar bürüyürdü- Vəziyyət günbəkün ağırlaşırdı.

Quzu dərisində kizlənmiş sovet rəhbərləri xalqımızın milli qüruruna qarşı məkr tələsi qürur, azadlıq eşqini qan dəryasında boğmağa hazırlaşırdılar.

Bu faciəni yanvar ayının 20-də törətdilər...

Uzun illər ərzində inadla adamların şüuruna yeridilən

sovet həqiqəti, ədaləti barədə uydurma, xülya bir göz qırpımında puç oldu. Bu barbarlıq bütün acısı ilə qeyrəti, milli fəxarəti olan hər bir namuslu adamın qan yaddaşına hopdu. Öz vicdanı ilə laqeydlik, biganəlik "sazişi" bağlamayan çoxlarının gözlərini sovet gerçəkliyinə açdı, əqidəsində barışmazlıq odu-alovu yandırdı. hamlet İsayev onların ön cərkəsində idi...

*"...Sovet ordusunun Bakıda törətdiyi ağlasığmaz vəhşilik Azərbaycanda geniş etiraz doğurdu. Kommunist Partiyası sıralarını tərk etmək bu etirazın formalarından biri idi. Partiya biletini təhvil verənlərdən biri də mən oldum. Çox təəssüf ki, qısa müddətdən sonra xeyli adam heç nə olmamış kimi öz partiya biletlərini (xahiş-minnətlə) geri aldı. Özümü partiyasız daha rahat hiss edirdim və məsləhət, dedi-qodu, hədələrə baxmayaraq, partiya biletimlə həmişəmik vidalaşdım.*

*Respubmikamızdakı hüzn və hiddət siyasi aktivliyə yeni istiqamət, vüsət verdi. Əvvəllər siyasətlə məşğul olmayannarın əksəriyyəti öz sözünü demək, öz yerini müəyyən etmək istədi. Bəzi dost, tanış və yoldaşlarla məsləhətməşdikdən sonra yeni siyasi partiya yaratmaq fikrinə düşdük. Lakin siyasətlə məşğul olmaq istəyənlərin Siyasi-Maarif Evində keçirilən görüşlərində ikicə dəfə iştirak etdikdən sonra bir daha anladım ki, mən tədqiqatçıyam, elm və təhsillə məşğul olmaq və siyasi fəaliyyətdən uzaq durmaq təbiətimə daha çox uyğun kəlir, daha yaradıcı həyat sürmək imkanını əldə saxlayıram. Fikir və hərəkətlərimi elm və təhsilin təşkilində birləşdirmək mənə daha məqbul və xoş göründü. Amma siyasətlə, Azərbaycanda baş verən hadisələrlə bağlı fikirlərim boşa getmədi. "Milli - azadlıq hərəkatı haqqında düşüncələr" adlı tarixi-coğrafi baxımdan müqayisəli və günümüzün Azərbaycan problemləri ilə səslənən bir məqalə üzərində işlədim. Məqalənin çap olunması naminə Azərbaycan sözünü*

*heç yerdə işlətməsəm də, senzura üzündən bu yazının oxuculara çatması xeyli vaxt apardı..."* ("Xəzər-Vyu" qəzeti. 1 fevral 1997-ci il. "Xəzərin sorağında". H.İsaxanlı).[63]

Düz bir ildən sonra, 1991-ci ildə "Ulduz" jurnalının 1-ci sayında (qısa variantı isə "Gənclik" jurnalında) yazısı işıq üzü gördü. Sözönündə yazıldı:

*"Dəhşətli yanvar günlərinin qaranlığında ilişmiş düşüncənin "niyə belə oldu?", "müqəssir kimdir?", "nə etməli?" suallarından yarandı bu yazı. Göz yaşları və qəzəb arasında çırpınan qəlbin səsindən yarandı bu yazı. 1990-cı ilin qışında qələmə alınmış bu yazı işıq* üzü *görmədi. Alleqoriya, ünvansızlıq, tarixilik, elmilik donları geysə də, yaza çıxmadı bu yazı, yayda isinmədi bu yazı. Bu gün yazılsaydı, xeyli başqa cür yazılardı bu yazı. Amma o qara günlərin yazısına pozu yoxdur, elə həmin yazıdır bu yazı".*

Bu əsər milli-azadlıq hərəkatlarınıp səciyyəvi cəhətlərinin üzə çıxarılması və dərin təhlilinə həsr olunmuşdur.

Müəllif tarixə, mənəviyyata və məntiqə əsaslanan orijinal yanaşma vasitəsilə cəmiyyətin təhlükəli və sürətli dəyişmə dövrünün çox maraqlı modelini qurmağa müvəffəq olmuşdur. Ən mühüm nəticə isə məqalənin ruhundan doğan tövsiyələrdir: *"Xalq hərəkatının təhlili "millətin mənafeyi" cəhətdən deyil, həqiqəti, acı da olsa, yalnız həqiqəti axtarmaq baxımından aparılmalıdır. Bu çox mühüm məsələ təsəvvür edildiyindən çox-çox çətindir, həqiqətə birqiymətli, təkanlamlı baxış mümkündürmü? Böyük B.Paskalın "Düşüncələr"indən kiçik bir parçaya nəzər salaq: "həqiqət və ədalət elə kiçik nöqtələrdir ki, biz kobud alətlərlə onları nişan alarkən, demək olar ki, həmişə xəta buraxırıq. Hətta düz nişan alsaq da, o nöqtəni yayırıq və bu zaman əsasən onu əhatə edən yerlərə -*

[63] Hamlet İsaxanlı. İn search of "Khazar"/ "Xəzərin" sorağında / В поисках «Хазара». Khazar University Press / Xəzər Universitəsi Nəşriyyatı, Baku / Bakı, 2006.

*daha çox yalana, nəinki həqiqətə toxunuruq”.*[64][65]

Dünyanın ən inkişaf etmiş, ən közəl ölkələrində dəfələrlə yüksək mərtəbəli iş təklifi almışdır. Lakin H.İsaxanlı vətənsiz qalmaq istəməmiş, vətənə qayıtmışdır. Dilimizin saflığı və közəlliyini, tarix və mədəniyyətimizin dərinliyi və rəngbərəngliyini təbliq etmiş, təhsil və elmimizin durğunluqdan çıxması üçün heç nəyini əsirgəməmişdir. Vətəndaşlıq onun işindədir, əməlindədir, opun qəlbində və varlığındadır.

[64] Hamlet İsaxanlı. Milli-azadlıq hərəkatı haqqında düşüncələr // Ulduz. – yanvar 1991. – s. 74-79.

[65] Hamlet İsaxanlı. Milli-azadlıq hərəkatı haqqında düşüncələr // Gənclik. – №8, 1991. – s. 32-35.

## *QƏHRƏMANLIQDAN DOĞAN RUH*

Təkcə dünənin dərdi doğurmurdu onda bu acı düşüncələri. Tarixi, silinməz yaddaşı vardı onların. İllərin dərinliyində idi kökləri. Nəsillikcə azadlıq aşiqi olublar. Əllərində silah ellikcə döyüşüblər, yurdlarına gözükölgəli, qara fikirlərlə gələnlərə qarşı...

1920-ci illər...

Sovetlər süquta yetirdikləri çarizmin xarabalıqları üzərində yeni imperiyanın təməlini kolxoz hərəkatı... kollektivləşmə... qolçamaqlığın ləğvi... xalq düşmənlərilə mübarizə şüarları altında qurmağa başladılar.

Xalqlar bunu tez başa düşdü. Öz yurdlarını, el- obasını müdafiəyə qalxdı.

Mərkəzi Zaqafqaziyada azərbaycanlılar arasında sovetləşməyə qarşı müqavimət ketdikcə şiddətləndi. Sovet məmurlarının təzyiqləri, taxıl və mal-dövlətin zorakılıqla sahiblərindən alınması, həyat dayağı olan torpaqların zəbt olunması və nəhayət, milli haqsızlıqlar kəndlilərin səbir kasasını doldurdu. Ədalət, yaşamaq haqqı uğrunda ölüm-dirim mübarizəsi başlandı. Bu mübarizənin ön cərgəsində öz şücaəti, yenilməzliyi ilə tanınan İsaxan Hacıbayramlı dururdu. Hamlet İsaxanlının babası. İsaxan babasından qalıb onda zülmə,

ədalət- sizliyə qarşı barışmazlıq ruhu.

*"...İsaxan Gürcüstanın Qarayazı rayonu Dəmirçihasanlı kənd sakini İsə hacıbayramoğlunun ailəsində 1897-ci ilin yayında Qara xaç yaylağında anadan olmuşdur. Atası İsə 1897-ci ilin yazında (hələ İsaxan anadan olmamış), anası Tükəzban 1930-cu ilin mart ayında dünyalarını dəyişmişlər.*

*İsaxan sovetlərlə qanun dairəsində hərəkət etməyə çalışmışdı. Hətta onlar tərəfindən başçı ("qlavnı") təyin edilmişdi. Lakin onun qürur və həqiqətpərəstliyi, haqsızlıqa dözməməsi və xalq arasındakı nüfuzu Dövlət Siyasi İdarənin (QPU) xoşuna gəlmirdi. L.Beriya İsaxanı və onun menşevik partiyasının üzvü, sovetlərin barışmaz düşməni, xalq arasında "Xozeyin" adı ilə tanınan əmisi oğlu Qurbanı şəxsən tanıyırdı. Beriya ikibaşlı siyasət aparır, üzdə İsaxanla dost olduğunu söyləyir, yeri gələndə onun nüfuzundan nstifadə etməyə çalışır, əslində isə onun ətrafında tor qururdu. İsaxanın mərdliyi və igidliyi hətta kommunistlər arasında ona hörmət qazandırmışdı. "Doğulduğun torpağı qoru, o torpaqda yaşa" tezisini müdafiə etmək o qədər də asan başa gəlmirdi. Haqsızlıq aşıb-daşırdı. Qısa vaxtda elliklə kollektivləşmə siyasəti yürüdüldü. Tiflisdən göndərilən Aşotyan adlı birisinin başçılıq etdiyi dəstə Dəmirçi-Hasanlıda kəndlilərin mallarını yazmaqa, əlindən almağa başladı.*

*L.Beriya xalqın silahlı olduğunu bilirdi. Onu da bilirdi ki, yerli camaat və ətraf kəndlərdə yaşayanlar İsaxandan silahlı mübarizəyə başlamasını tələb edirlər. 1929-cu il oktyabrın 27-də kolxoza girməyə məcbur edilən kəndlilər silaha əl atdılar. İsaxanın başçılıqı ilə üsyan təşkilatı quruldu. Qarayazının hər tərəfindən onun dəstəsinə könüllülər axışdı.*

*Böyük milis qüvvələri üsyançılar üzərinə hücuma keçdi. İsaxanın dəstəsi qələbə çaldı. Qarayazı və onun mərkəzi Qaratəpə üç aya yaxın onun dəstəsinin əlində qaldı. Üç*

*respublikanın qovuşduğu ərazilərdə əhalinin nisbətən rahatlıqı təmin edilə bildi.*

*Üsyançıların uğurları, xalq hərəkatının böyüməsi Zaqafqaziya rəhbərlərini, Moskvanı, Mərkəzi Komitəni təşvişə saldı.*

*İsaxan isə Qarayazıdan Borçalı, Qazax, Axalkələk, Qaraçöp, Lori və Zaqatala ilə əlaqə saxlayır, üsyanı daha geniş ərazilərə yaymağa çalışırdı. 1930-cu il yanvar və fevral aylarında bütün Borçalını üsyan bürüdü - Sarvan, Korarxı, Qızılhacılı camaatı silaha sarıldı.*

*Artıq ordunun işə qarışacağı aydın idi.*

*1930-cu il martın 10-u gecəsi böyük miqdarda piyada və süvarilərdən ibarət ordu hissələri üsyançılara hücum etdilər. Bu əməliyyatda iki hərbi təyyarə, iki tank, zirehli qatar iştirak edirdi.*

*İsaxan əvvəlcədən düşünülmüş çox təhlükəli. Amma cəsarətli bir planı həyata keçirtdi. Onun döyüşçüləri qızıl əsgər forması geyinmişdilər. Onların qeyri-adi əks-hücumlarından özlərini itirən ordu böyük itki verdi. Mustafa Alcanlı, Nağı Hacıbayramlı, İsa Qastanlı və başqaları düşməni saysız tələfata uğratdılar. Martın 10-u və 11-i zirehli qatar ölüləri Tiflisə daşıdı.*

*Bu döyüşdən sonra İsaxan üsyançıları əvvəlcə Madaş dağına, oradan da Saqqızlı dağına apardı.*

*İsaxanın üzərinə ordu ilə hücum edilməsi və müvəffəqiyyətsizliyə uğraması Beriyanın vəziyyətini ağırlaşdırmışdı. Bir az əvvəl, nəyin bahasına olursa-olsun, İsaxanı məhv etməyə çalışan QPU-nun başçısı, indi, nəyin bahasına olursa-olsun, onunla barışmağa, sülh müqaviləsi bağlamağa çalışırdı. O heç də öz məkrindən əl çəkməmişdi. Elə əvvəlki adam idi. Məqsədi sadəcə baş qatıb vaxt udmaq, savaşın böyüməsinə imkan verməmək, yeni repressiyalar üçün*

*zəmin hazırlamaq idi. Hər cür vasitəyə əl atırdı. Yanına hörmətli adamları, ağsaqqalları göndərirdi.*

*1930-cu il martın 20-də Qarayazı meşəsinin şərtləşdirilmiş yerində İsaxan bir neçə silahdaşı ilə birlikdə QPU-nun nümayəndələri ilə görüşdü. Beş maddədən ibarət sülh müqaviləsi irəli sürdü və bu maddələrə heç bir dəyişiklik qəbul etməyəcəyini bildirdi. Görüşə gələnlər müqavilə şərtlərinin güman etdiklərindən daha ağır olduğunu bildirib, Beriya ilə görüşmək üçün 24 saatlıq möhlət istədilər. Və ertəsi gün qayıdıb bütün şərtləri qəbul etdiklərini bildirdilər.*

*Barışıq məclisi martın 25-də Dəmirçi-Hasanlıda, İsaxanın evində quruldu.*

*Müqavnlədən iki ay keçməmiş ara yenidən qarışdı. Tiflisdən bir-birindən həyəcanlı xəbərlər gəldi. Cəza əməliyyatları hazırlanırdı. İsaxan burada döyüşə girməməyi, qüvvələrini Lori düzənliyi və Qaraxaç yaylağına çəkməyi qərara aldı. Bacarıqla manevr edərək, döyüşə girmədən dağlara çatmağa müvəffəq oldu.*

*QPU yatmamışdı. Qaraxaçda İsaxanın yanına köməkçi kimi təhkim edilən Oruc adlı gizli məmur lazımi məlumatları verə bilmişdi.*

*...İsaxanın köç əhlindən və döyüşçülərindən uzaqda olduğunu bilən ordu gözlənilmədən hücum etdi. Bu vəziyyədən xəbərsiz olan İsaxana və onunla yola çıxan iki silahdaşına - Alı haqqalanlıya və Sadıx Sadıxoğluna Çalaloğlunda (indiki Stepanavan) pusqu qurdular.*

*İsaxanın ölümü haqqında geniş səhih məlumat yoxdur. Müxtəlif rəvayətlər, deyimlər söylənilir.*

*O, 1930-cu ildə, 33 yaşında, elə anadan olduğu yerlərdə qəhrəmancasına həlak olmuşdur..."*

Hamlet İsaxanlının Mərkəzi Zaqafqaziyanın sovetləşməsi və kollektivləşməsi dövrünün ictimai-siyasi mənzərəsinə həsr

olunan tədqiqat əsəri tarixşünaslığımızda yeni söz oldu. Eyni zamanda babası İsaxanın ikidliyi və şəxsiyyəti haqqında keniş vüsət tapmış əhvalatların elmi əsasını hazırlamaq da ona nəsib oldu. Bizim oxuculara təqdim etdiyimiz məlumatlar isə H.İsaxanlının yuxarıda adı çəkilən əsərindən seçmələrdir (məsələn, "Xalq qəzeti"nin 148, 149, 150 sayları. 1996-cı il. "İsaxan üsyanı". H.İsaxanlı).[66]

Nəsillərin dəyişməsinə, yarım əsrdən xeyli çox keçməsinə baxmayaraq, Qarayazı elində, Borçalıda, Şimali Ermənistanın azərbaycanlı (indi qaçqın) və erməni əhalisi arasında elə bir el şənliyi, əziz gün, toy-mağar olmaz ki, xalq arasında əfsanəyə dönən, şücaəti, mərdliyi, yenilməzliyi dillər əzbərinə çevrilən İsaxan yad edilməsin, aşıqlar onun şəninə nəğmələr, dastanlar söyləməsin.

Babasından gələn mübarizlik, həqiqətpərəstlik, vətənpərvərlik, mərdlik ruhu Hamletdə qaynadı, coşdu, irəli, uzaqlara gedən yollarda ona yar oldu.

[66] Hamlet Isaxanli/ Mərkəzi Zaqafqaziyanın sovetləşmə və kollektivləşməsi dövrünün ictimai - siyasi mənzərəsi və İsaxan üsyanı. "Azərbaycanda içtimai- siyasi fikir - XX əsr" konfransının materialları, səh. 1-16, Bakı, Xəzər Universitəsi, 12 may 1996. Xalq qəzeti, №№148,149,150, 1996. Gürcüstan (qəzet), Tbilisi, №№34-42, 1996.

## *ELM VƏ TƏHSİL DÜŞÜNCƏLƏRİ*

Müasiri olduğumuz dövr milli-azadlıq hərəkatları, cəmiyyətdə baş verən dəyişikliklər, yeni ideyalar, ziddiyyətlər barədə düşünməyə, həlli vacib suallara cavab axtarmaqa, gündə qarşılaşdığımız problemləri saf-çürük edə-edə, həyatın tələblərinə uyğun aradan qaldırmağa çaqırır, səfərbər edirdi.

Azərbaycan sosializmdən yeni həyat tərzi ilə fərqlənən, yeni mənəvi dayaqlara arxalanan formasiyaya qədəm qoydu. Varlığı bazar münasibətləri üzərində bərqərar olan quruma addımladı. İndiyə qədər bizə məlum olmayan özəlləşdirmə, özəl mülkiyyət, demokratiya və demokratik dövlət quruculuqu ilə üz-üzə gəldik.

Respublikanın ictimai, siyasi, iqtisadi həyatında qeyri-müəyyənlik, anlaşılmazlıq hökm sürməyə başladı.

Lakin son dövr dövlətin həyata keçirdiyi geniş islahatlar siyasəti, əsrin neft müqaviləsinin bağ- lanması, dünyada tanınan xarici şirkətlərin fəaliyyətə başlaması, aparıcı sənaye sahələrinə sərmayə qoyuluşunun artması respublikanın iqtisadi durumunda dirçəlmə ab-havasını get-gedə bərqərar etməkdədir.

Siyasi həyat da möhkəm, sabit məcra ilə yüksəl- məkdədir.

Bəs sovet dövründə boya-başa çatan təhsil, xalqın gələcək

mənəvi tərəqtisini müəyyən edən elm və mə- dəniyyətimiz hansı yolla irəliləməlidir, hansı yolun yolçusu olmalıdır?

Dərin təəssüf hissi ilə qeyd edilməlidir ki, ürəkaçan işıq ucu yox dərəcəsindədpr. Təhsil ocaqlarımızda ətalət, səthilik, natamamlıq yaranıb və indinin özündə də hökm sürməkdədir. Eyni proqramlar, eyni metodika, eyni üsullar, dünya standartlarından aşağı səviyyə...

Bu, bir tərəfdən dövrün mürəkkəbliyilə bağlı idisə, digər tərəfdən düşünülmüş konsepsiyanın olmamasından irəli gəlirdi. Təhsil, elm, mədəniyyətimizin yaxın keçmişi, indiki və kələcək taleyi təhlil olunmalı, bu sahələrdə əsaslı dönüş başlamalı idi. Vaxtı ötürmək, necə deyərlər, fürsəti əldən vermək olduqca pis, acınacaqlı nəticələr doğura bilərdi.

Özünün "Xəzərin sorağında" mülahizələr toplusunda yazdığı kimi, H.İsaxanlı məhz bu yolu seçdi *"Fikir və hərəkətlərini elm və təhsilin təşkilində Birləşdirmək daha məğbul və xoş göründü".*[67]

Mövcud təhsil sisteminin daha kamil, hərtərəfli kötür-qoy edilmiş, dünya standartları fev1-ün.' qaldırılmış yeni sistemlə əvəz olunması labüdlüyünə həsr etdiyi analitik silsilə məqalələrlə dövri mətbuatda çıxış etdi. Öz düşüncə və mülahizələrini açıqladı.

ABŞ, Kanada, Avropa, Qərbi və Cənub-Qərbi Asiya ölkələrindəki mövcud təhsil sistemlərini dərindən araşdırdı. Onların oxşar və milli ənənələrə əsaslanan fərqlərini tədqiq etdi. Ölkələrdəki dövlət və özəl təhsil ocaqlarının tutduqları yeri öyrəndi. Almaniya və İngiltərədə təhsil sistemində dövlət məktəblərinin üstünlüyünü tarixi ənənələrə bağladı, bir çox inkişaf etmiş ölkələrdə özəl strukturların aparıcı qüvvəyə

[67] Hamlet İsaxanlı. İn search of "Khazar"/ "Xəzərin" sorağında / В поисках «Хазара». Khazar University Press / Xəzər Universitəsi Nəşriyyatı, Baku / Bakı, 2006.

malik olduğunu və onun səbəblərini təhlil etdi.

Stanford, Yel Universitələri, Massaçusets Texnologiya İnstitutu kimi önəmli ali təhsil məktəbləri özəldir. Özəl ali məktəblər daha tutumlu təhsil siyasəti aparırlar. Hazırda Avropada da bu meyllər küclənməkdədir.

Dünyada çox yüksək səviyyəyə malik nüfuzlu Harvard Universitəsi də özəldir. Onun divarları arasından adlı-sanlı alimlər, məşhur mütəxəssislər, tanınmış dövlət adamları çıxıb.

Dünya Bankı və YUNESKO da özəl ali təhsil ocaqlarına üstünlük verir. Onların sərbəstliyini demokratiyanın meyarı kimi qiymətləndirirlər. Təhsildə islahatların keçirilməsini ən ümdə amil, ən vacib problem kimi dəstəkləyirlər.

Bu sahədə apardığı geniş araşdırmaların nəti- cələrini istedadlı alim 1990-cı ilin yayında qələmə aldığı "Elm və təhsil sistemi haqqında mülahizələr" adlı yazısında açıqladı. Bu, adicə məqalə deyildi. Belə zənn etmək respublikamızın kələcəyinə açıq gözlə baxan, onu vətəndaş alim, maarifçi mövqeyindən qiymətləndirən, elmi potensialımızın sabahkı gününə can yandıran, həyati gerçəkliyimizi, hazırkı məqamları görüm, durum süzkəcindən keçirən pedaqoq, alimin elmi qənaətlərinə hörmətsizlik kimi səslənər. Onun mülahizələri, sözün əsl mənasında, strateji konsepsiyadır. Xalqımızın gələcə- yini müəyyən edən əsas amillərdən biri olan təhsil və elm konsepsiyası. *Hazırda beynəlxalq əlaqələrin sürətlə artdığı bir dövrdə peşəsinə dərindən yiyələnmiş kadrların çatışmazlığı özünü daha qabarıq göstərir. Beynəlxalq aləmə, elm və iqtisadiyyatın müasir sahələrinə dərindən bələd olan, çevik və analitik düşüncəyə malik, geniş intellektli, xarici dillərdə Qərb mütəxəssisləri ilə sərbəst dialoqa girə bilən həmvətənlərimizi barmaqla saymaq olar.*

*İqtisadiyyatda inqilabi dəyişikliklər elm və təhsildə də özünə mütənasib dəyişikliklər tələb edir, çevik və güclü*

*dünyəvi düşüncənin formalaşmasını zəruri edir.*[68] Necə deyərlər, bazis dəyişəndə ona uyğun üstqurum yaradılmalıdır.

Qətiyyətlə söyləmək olar ki, "Elm və təhsil sistemi haqqında mülahizələr" alimin bu günümüzlə səsləşən və gələcəyimizə səsləyən proqramıdır. Onun fikrincə, köhnə təhsil sistemini səciyyələndirən əsas cəhət onun vahid mərkəzdən idarə edilməsi, birmodelli olmasıdır. Bunun həm üstün, həm mənfi tərəfləri var. Bilik verməyinə verirdi, amma fərdiliyi, dəyişgənliyi, ələlxüsus, yeniliyi yox dərəcəsinə endirirdi.

Alim onu düşündürən suallar irəli sürür: bütün nəhəng ali təhsil sistemini, elm və mədəniyyət ocaqlarını gerçək həyatın tələblərinə uyqun yeniləşdirmək olarmı? Onun fikrincə, bu sahədə müvəffəqiyyətə aparan iki yol, iki istiqamət mövcuddur.

*Birincisi, müəyyən elm və təhsil mərkəzlərini ayırıb, onların hərtərəfli inkiişfının qayğısına qalmaq.*

*İkincisi, təhsil sistemində və elmdə Qərbi Avropa və Amerika modellərini öz ənənələrimizi, şəraitimizi nəzərə almaqla tətbiq etmək. Təhsildə islahatlar keçirmək, yeni tipli ali təhsil ocaqları, elmi mərkəzlər yaratmaq vacibdir.*[69]

Burada H.İsaxanlı çevik özəl universitələrə üstünlük verir. Yeni tipli ali təhsil və elm ocaqlarının əsas xüsusiyyətlərini açıqlayaraq, belə təhsil müəssisələrinin dəqiq, ictimai-siyasi və humanitar elmlər sahəsində xarici dilləri bilən mütəxəssislər yetişdirə biləcəyini söyləyir.

*Ali təhsili məhz bu qaydada qurmaq süni şəkildə kimisə, nəyisə təqlid etmək naminə deyil, keyfiyyətin yuksəlməsinə,*

[68] Hamlet İsaxanlı. İn search of “Khazar”/ “Xəzərin” sorağında / В поисках «Хазара». Khazar University Press / Xəzər Universitəsi Nəşriyyatı, Baku / Bakı, 2006.
[69] Hamlet İsaxanlı. İn search of “Khazar”/ “Xəzərin” sorağında / В поисках «Хазара». Khazar University Press / Xəzər Universitəsi Nəşriyyatı, Baku / Bakı, 2006.

*elm və mədəniyyətimizə yeni təsirli təkan verməyə xidmət etməlidir. Həm də bu, Qərb ölkələri ilə təhsil sənədlərinin etibarlılığı barədə müqavilələr bağlamaq imkanı yaradar. Bakalavr və magistr diplomları ali məktəbə başqa ölkələrdən gələn tələbələri oxutmaq, xarici ölkələrlə tələbə mübadiləsi aparmaq üstünlüyü də verər.*

Alim ali məktəblər barədə daha bir maraqlı fikri dönə-dönə ön plana çəkir. *Yüksək səviyyəli elmi-tədqiqatlar aparmayan şş məktəblərdə müasir tələblərə cavab verə biləcək mütəxəssis hazırlamaq mümkün deyil.* H.İsaxanlı bu fikrində israr edir. Müvəffəqiyyəti universitələrin həm ali təhsil ocaqı, həm də elmi-tədqiqat mərkəzləri kimi fəaliyyət göstərmələrində görür. *"Elm və təhsil vəhdət yaratmalıdır. Bir-birini bəhrələndirmlidir"*- deyən müəllif "Elm və təhsil sistemi haqqında mülahizələr"ini bu nəticə ilə bitirir:

*"Siyasi sistemdə pluralizm, iqtisadiyyatda müxtəlif mülkiyyət formaları ölkəmizdə özünə yol açmaqda və düşüncələrə hakim kəsilməkdədir. Ali təhsil və elmin təşkilində də forma rəngarəngliyindən qaçmaq olmaz. Müxtəlif tipli ali təhsil ocaqlarının yanaşı fəaliyyət göstərməsi məqsədəuyğundur.*

*İnsanlara hər sahədə seçmə hüququ verilməsi tə- rəqqinin zəruri əsasıdır..."* [70]

[70] Hamlet İsaxanlı. İn search of "Khazar"/ "Xəzərin" sorağında / В поисках «Хазара». Khazar University Press / Xəzər Universitəsi Nəşriyyatı, Baku / Bakı, 2006.

Hamlet İsaxanlı yalnız tədqiqatçı, nəzəriyyəçi deyil, sözün əsl mənasında, təşkilatçı alimdir, elm və təhsil təşkilatçısı, qurucusudur.

Bu keyfiyyət sanki ilahidən onun taleyinə yazılan vergidir. İnkarolunmaz fitri istedaddır. Məhz bu istedadı təhsil sistemindəki düşüncə, mülahizə və müşahidələrini əməli işə çevirməyə imkan verdi, xəyalında qurduğu və bəslədiyi sistemi əzmlə həyata keçirməyinə səbəb oldu. Keçmiş SSRİ-də ilk özəl və ingilisdilli universitə yarada bildi. "Xəzər"i!

Xəzər Upiversitəsinin yaradılmasına hazırlıq sərəncamı 1990-cı il dekabrın 20-də Baş nazir Həsən Həsənov tərəfindən imzalandı, 1991-ci il martın 18-də isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 41 saylı qərarı ilə bu universitə Bakı şəhərində açıldı və yüksək səviyyəli elm, təhsil və mədəpiyyət ocağı kimi nüfuz qazandı.

Nədir Xəzər Universitəsi?

Təbiət elmləri və mühəndislik, iqtisadiyyat və idarəetmə, hüquq və siyasi elmlər, tibb və humanitar elmlər sahəsində yüksək səviyyəli mütəxəssislər yetişdirməyi qarşısına məqsəd qoyan, verdiyi məzunluq diplomlarının beynəlxalq aləmdə tapınmasına çalışan mühüm elmi mərkəz və ali təhsil məbədidir. O, ölkəmizdə dünyəvilik ideyasının və bu zəmində milli mədəniyyətimizin inkişafını sürətləndirməyə çalışan

qurumdur.

Niyə "Xəzəri "Nefqçilər"də "Qərbin vahəsi (oazisi)" adlandırırlar? Həqiqətənmi buna layiqdir? Yüz deməkdənsə, bir körmək yaxşıdır. İşıqlı mühazirə otaqları, fənn kabinetləri, yumşaq xarici mebel ilə bəzədilmiş par-par parlayan dəhlizlər...

Səliqə, rahatlıq, təmizlik, yüksək mədəniyyət...

Yüksək tələb, ciddilik, nizam-iitizam, nümunəvi daxili qayda-qanun...

Səfərlər, görüşlər, elmi konfranslar...

Sağlamlıq, idman, musiqi, çal-çağır...

Və elmi düşüncələr, oxuyub-öyrənmək həvəsi, yenilik abhavası ilə zənkin tələbə dünyası...

Yarandığı altı il ərzində Xəzər Universitəsi hansı nailiyyətləri qazanıb? Beynəlxalq aləmdə nə ilə tanınıb?

...70-dən artıq universitə arasında ABŞ İnformasiya Akentliyinin keçirdiyi böyük müsabiqədə üstünlük qazanıb.

...Los-Anceles Kaliforniya Universitəsi ilə iki illik geniş əməkdaşlıq proqramını həyata keçirib. Bir sıra ixtisaslar (tibb, ingilis dili, sosial elmlər, iqtisadiyyat, informasiya elmləri) üzrə onlarla müəllim həmin universitəyə gedib, bir o qədər də oradan Xəzər Universitəsinə kəlib.

Dünyanın bir çox universitələri ilə diplomların qarşılıqlı etibarlılığı haqqında müqavilə baqlayıb. Bir sıra sahələrdə elmi tədqiqatların, təhsilin və praktikanın vəhdətini təmin edən magistr və doktor proqramları hazırlamış, onların gerçəkləşməsi üçün beynəlxalq əməkdaşlıq yaratmağa müvəffəq olmuşdur.

ABŞ prezidentinin tələbə mübadiləsi üzrə qrantını qazanmış, ABŞ-ın məşhur Avro-Asiya fondunun qrantını almış, biznes idarəçiliyi üzrə Corciya Dövlət Uiiversitəsi (Atlanta şəhəri) ilə sıx əlaqələr yaratmışdır.

...ABŞ Sülh İnstitutunun ekspertləri "Konfliktlər və onların həlli” mövzusunda ikiillik kadr hazırlığı, elmi-tədqiqat işləri və konfranslar keçirmək üçün ABŞ, Türkiyə, Azərbaycan və Ermənistandan - hərəsindən bir universitə seçiblər. Bizim ölkəmizdən "Xəzər" layiq bilinib.

...Fransanın Dunkerk Ali Kommersiya İnstitutunda “Xəzər”in xeyli tələbəsi hüquq, kommersiya və menecmentin müxtəlif sahələri üzrə təhsil alıb və bu sahədə daha keniş əməkdaşlıq müqaviləsi bağlanılıb.

ABŞ-ın qabaqcıl ali məktəblərindən olan Purdyu (Riqbie) Universitəsi ilə əməkdaşlıq proqramı həyata keçirilməkdədir. Bakalavr, makistr və doktor səviyyəsində mübadilə və birgə elmi-tədqiqat işləri başlanılmışdır.

100-dən artıq tələbəsi təhsillərini ABŞ, Kanada, İngiltərə, Fransa, Çexiya, Rusiya, Misir, Türkiyə, İsrail kimi ölkələrin ali təhsil ocaqlarında davam etdirib.

...100-dən çox xarici ölkə mütəxəssisi tələbələrin qarşısında mühazirələrlə çıxış edib.

...ABŞ-ın məşhur Fulbrayt fondunun ilk altı azərbaycanlı qalibinin beşi məhz "Xəzər"in alimi olmuşdur.

Beynəlxalq Qlobal Keyfiyyət Menecmenti təşkila- tının keçirdiyi müsabiqədə 80-dən çox ölkəni təmsil edən çoxsaylı müəssisə və təşkilat iştirak edib. Bütün inkişaf etməkdə olan ölkələrdən 30 qalib müəyyən edilib. Onların arasında Xəzər Universitəsi də olub. Maraqlı faktdır ki, 30 qalib sırasında!!!... təhsil ocağı təkcə "Xəzər"dir.

Sirr deyil ki, beynəlxalq təşkilatlar əbəs yerə heç kimə bu cür yüksək mükafat vermir. Xəzər Universitəsi müsabiqəyə əliboş getməmişdi. Çapdan yenicə çıxan "Kataloq"unu aparmışdı. Böyük zövq, yüksək çap mədəniyyətinə malik bu sənəddə görülən işlər, aparılmış tədqiqatlar, tədris-təlimin önəmli problemlərindən olduqca keniş və müfəssəl məlumat

toplanmışdır.

Jurnalistlər “Xəzər”i çox sərrast olaraq kələcəyə - XXI əsrə açılan pəncərə adlandırıblar. Haqlıdırlar. Burada intellektual kənc nəsil böyüyür. Burada təhsildə islahat yolunun fədailəri, yaradıcı kollektiv çalışır və onlara Hamlet İsaxanlı kimi öz işinin vurğunu və bilicisi olan alim başçılıq edir.

## *“XƏZƏRLƏR QOŞALAŞDI” VƏ YA DÜNYANIN GÖZÜ İLƏ*

***Fəridə Məmmədova***
***(Professor, tarixçi, Bakı):***

*“Xəzər Universitəsi ən yaxşı Qərb ali məktəblərinin nümunəsi ilə, onlara bənzədilərək yaradılmışdır. Bu, çox gözəldir, amma bu universitənin öz milli xususiyyətlərimizi təbliğ etməsi, mədəniyyətimizin dirçəlməsi və inkşiaf etməsi üzrə çox vacib işlər görməsi də olduqca təqdirəlayiqdir*

***Ercan Qurbanov (Doktor, Merilend Universitəsi, ABŞ):***

*“Məşhur və çox hormətli Xəzər Universitəsi yüksək keyfiyyətli təhsil və elm standartlarına uyğun, müstəqil təhsil sisteminin önündə gedən bir flaqmandır ”.*

***Uilyam Q.Roy (Doktor, Los-Anceles Kaliforniya Universitəsi, ABŞ):***

*"Xəzər Universitəsi çox böyük valehedici bir nailiyyət, üstəlik, ən qarışıq şəraitdə əldə edilən bir nailiyyətdir”.*

***Yezdi Bhada***
***(Doktor, Corciya Dövlət Universitəsi, ABŞ):***

*“Biz Xəzər Universitəsi ilə əməkdaşmıqla fəxr edirik və düşünürük ki, bu əlaqələrimiz qarşılıqlı fayda verəcəkdir".*

***Riçard Braun***
***(Bakıda Amerika İnformasiya Mərkəzinin direktoru, Azərbaycanda ABŞ səfirliyi):***

*"Xəzər Universitəsi, çox güman ki, Azərbaycanda ən inkiişaf etmiş ali məktəbdir".*

***Tadeuş Svyatoçovski***
***(Doktor, tarixçi-şərqşünas, ABŞ):***

*"...Xəzər Universitəsinin ab-havası olduqca xoşuma gəlir. O, mənə əsas xüsusiyyəti daimi axtarışda olan və buna görə daimi dəyişmədə olan Amerika universitələrini xatırladır".*

***Lidiya Rəsulova (Azərbaycan Respublikası təhsil naziri):***

*"Xəzər Universitəsi ilk özəl universitə olmuş və qısa müddət ərzində təhsilin təşkili və tədrisin təkmilləşdirilməsi sahəsində diqqətəlayiq inkişaf yolu keçmişdir".*

***Tomas Yanq***
***(Böyük Britaniyanın Azərbaycandakı səfiri):*** *"Xəzər Universitəsinin öz potensial imkanlarını həyata keçirməsinə çox şadam. "Xəzər" Azərbaycanda özəl universitə kimi çox nüfuz qazanmışdır, Azərbaycanın bütün universitələri arasında ən qabaqcılıdır".*

***Maykl Smit***
***(Doktor, Purdyu Universitəsi, ABŞ):***

*"Əminəm ki, sizin universitəniz yeni ideyaların həyata keçməsinin mümkün olduğu bir yerdir... Sizdə hərtərəfli, bitkin təhsil prosesi üçün bütün imkanlar vardır.*

**_Hafiz Paşayev (Azərbaycanın ABŞ-dakı səfiri):_**

*"İlk özəl ali təhsil məktəbi kimi təsis edilmiş Xəzər Universitəsi artıq özünə mohkəm yer etmiş, Azərbaycanın məşhur, tarixi zəngin olan universitələri sırasına daxil olmuşdur".*

**_Zərdüşt Əlizadə (Azərbaycan Sosial - Demokrat Partiyasının həmsədri):_**

*"Xəzər Universitəsinin ən böyük nailiyyəti onun dünyaya, azad fikrə, qabaqcıl elmi və pedaqoji üsullara açıqlıqıdır. "Xəzər" azad və demokratik Azərbaycanın gələcəyini təmin edən ən ümidverici əməldir ".*

**_Nadir Nəsibli_**
**_(Bakıdakı Amerika Universitəsinin prezidenti):_**

*"Artıq bu kun Xəzər Universitəsi milli kadrların hazırlanması və tərbiyəsi sahəsində əsaslı mərkəzə çevrilmişdir".*

**_Raymond Mak Qi (Doktor, ABŞ):_**

*"Ümidvaram ki, "Xəzər" öz tanınmış dəstxəttini möhkəmləndirməkdə, gözəl işlər görməkdə, Azərbaycan universitələrinin lideri olmaqda, həmçinin Azərbaycanın yenidən qurulmasında mühüm rol oynamaqda davam edəcək".*

**_Kristal haus_**
**_(İnkilis Dili Tədris Mərkəzinin direktoru, ABŞ):_**

*"Mən bu günə qədər "Xəzər''in kollektivini peşəkar həmkarlarım kimi qəbul etməklə onların hər birini öz ailəm kimi doğma, yaxın bilirəm.*

*Gələcəkdə yollar məni hara aparırsa aparsın, mən Xəzər Universitəsini qəlbimdə yatadacağam ".*

***Maniçə Sabi***
***(Doktor, Fulbrayt mükafatçısı, ABŞ):***
*"Bakı həyatım və "Xəzər''də dərs deməyim xatirimdə çox dərindən həkk olunub".*

***F. Səfizadə (Doktor, Amperst kolleci, ABŞ):***
*"Mən Bakıda olarkən Xəzər Universitəsinin Azərbayçan ictimaiyyəti üçün gələcək liderlər yetişdirilməsi yolunda böyük xidmət etdiyinə əmin oldum. Mən Xəzər Universitəsi ilə fəxr edirəm ''.*

***Zaur Zamanov (Valideyn):***
*"Xəzər" tələbkarlığı ilə, eyni zamanda tələbələrə qayğı köstərməsi ilə respublikamızın dikər ali təhsil ocaqlarından çox fərqlənir".*

***Debora Uelş***
***(Fulbrayt mükafatçısı, Massaçusets, ABŞ):*** *"Xəzər Universitəsinə xas olan harmoniya yuksək intellekt, hər şeyi bilmək həvəsi və yumorun birləşməsindən əmələ gəlir".*

***Maykl Savç***
***(Beypəlxalq Qlobal Keyfiyyət Menecmenti təşkilatının prezidenti, London):***
*"Qlobal Keyfiyyət Menecmentinin ən Yüksək Keyfiyyət uğrunda yarışında Xəzər Universitəsinin qalib gəldiyini sizə xəbər verməyi özümə şərəf hesab edirəm.*

*Sizin seçilməyiniz ən körkəmli təşkilatların geniş ümumdünya miqyasında axtarılması nəticəsidir. Biz böyük məmnuniyyətlə Sizin universitəyə aid materialları tədqiq edərək, doğrudan da, Qlobal Keyfiyyət Menecmenti mükafatına layiq olduğunuza inandıq və akkreditasiya səviyyəsinin Qızıl olduğunu müəyyən etdik".*

**Xəzərlər qoşalaşdı**

Hamlet İsaxanlı elə ki bir “Xəzər” açdı,
Tək qalmadı, ölkəmdə Xəzərlər qoşalaşdı.
Bir elm evinin kör nə közəl əyyamı gəldi,
Susmuşdu könül, təbi coşub, ilhamı gəldi,
Olsun közüm aydın ki Xəzər bayramı gəldi,
Hamlet İsaxanlı elə ki bir “Xəzər” açdı,
Tək qalmadı, ölkəmdə Xəzərlər qoşalaşdı.
Az vaxtda bu məbəd elə məşhur ola bildi,
Bir təntənə, bir dəbdəbə, bir şur ola bildi, Gözlərdə,
könüllərdə əsl nur ola bildi,
Hamlet İsaxanlı elə ki bir “Xəzər” açdı,
Tək qalmadı, ölkəmdə Xəzərlər qoşalaşdı.
Hərçənd nə ləlim, nə dürüm var, nə zərim var,
Elm incisi ardınca həmişə səfərim var,
Vahiddi əzəl, indi isə cüt Xəzərim var,
Hamlet İsaxanlı elə ki bir “Xəzər” açdı,
Tək qalmadı, ölkəmdə Xəzərlər qoşalaşdı.
Gündən-günə istiqlal oyanmaqda elimdə,
Aləm təzə bir nurə boyanmaqda elimdə,
Elmin yeni bir ulduzu yanmaqda elimdə,
Hamlet İsaxanlı elə ki bir “Xəzər” açdı,
Tək qalmadı, ölkəmdə Xəzərlər qoşalaşdı.
Ustadlarının ovqatı şad, könlü xoş olsun,
Tanrım, yolu üstündə onun qoyma qış olsun,
Gəlsin elə kün, altı yaşı altmış olsun,
Hamlet İsaxanlı elə ki bir “Xəzər” açdı,
Tək qalmadı, ölkəmdə Xəzərlər qoşalaşdı.
Şahin, əlimin var qələmi, xəncəri yoxdur,
Aləmdə bu bir cüt Xəzərin bənzəri yoxdur,
Batsın elə bir yer ki, onun rəhbəri yoxdur,
Hamlet İsaxanlı elə ki bir “Xəzər” açdı,
Tək qalmadı, ölkəmdə Xəzərlər qoşalaşdı.

# *ELMİ ARAŞDIRMALARA KENİŞ YOL*

"Xəzər"in ən önəmli cəhətlərindən biri də genişmiqyaslı elmi-tədqiqat işlərinə üstünlük verməsidir.

“Yüksək səviyyəli elmi-tədqiqatlar aparmayan ali məktəbdə yüksək səviyyəli mütəxəssis yetişdirmək mümkün deyil” fikrini irəli sürən H. İsaxanlı yaratdığı Xəzər Universitəsində elmi araşdırmaları ön plana çəkir, müxtəlif istiqamətlərdə tədqiqatlar aparılmasına şərait yaradır, bütün fəaliyyətilə “Xəzər tədqiqat yönlü ali məktəbdir” deməkdə haqlı olduğunu göstərir.

Elmi-tədqiqat işləri tək universitənin departa- mentləri (kafedraları) çərçivəsində qalmır, bu məqsədlə xüsusi institutlar və mərkəzlər qurulur, görkəmli tədqiqatçıların bu qurumlar daxilində fəaliyyət göstərməsi üçün əlverişli iş mühiti yaradılır.

*Qafqaz və Mərkəzi Asiya Araşdırmalar İnstitutu...*

Gizli deyil ki, hamıya yaxşı bəllidir ki, sovet dövründə bütün milli respublikaların siyasi, ictimai, iqtisadi, mədəni həyatının canı SSRİ-nin paytaxtında müəyyən edilirdi.

Hazırda həmin regionlarda öz milli tarixi, mə- dəniyyəti, mənəvi dayaqları, elmi, iqqisadiyyatı olan neçə-peçə müstəqil dövlətlər yaranıb.

Xəzər Universitəsində fəaliyyət göstərən Qafqaz və Mərkəzi Asiya Araşdırmalar İnstitutu bu ölkələrin öyrənilməsi sahəsində dünyanın müxtəlif guşələrində yaşayan alimlərin səylərini birləşdirməyə çalışır.

Bu elmi qurum müxtəlif istiqamətlərdə tədqiqaq layihələri və elmi-tədris proqramlarını tənzimləyir, alimlər-magistr və doktorlar hazırlanmasını planlaşdırır, elmi konfranslar keçirir, elmi axtarışların nəticələrini müxtəlif dillərə tərcümə edir, regiona xüsusi elmi marağı olan alimlərlə görüşlər təşkil edir.

İnamla demək olar ki, o, Qafqaz və Mərkəzi Asiyanın öyrənilməsində yeni mərhələdir.

*Amerikaşünaslıq İnstitutupup* yaradılması Xəzər Universitəsinin Amerikanın öyrənilməsinə böyük diqqətindən əlavə, ölkəmizlə Amerika Birləşmiş Ştatları arasındakı münasibətlərin həyati vacibliyindən irəli gəlir. Burada həm Azərbaycan tədqiqatçıları, həm də amerikalı mütəxəssislər siyasət, beynəlxalq münasibətlər, mədəniyyət, elm-təhsil, iqqisadiyyat sahələrində ABŞ-ın oynadığı rolu araşdırır, maraqlı seminar və görüşlər keçirirlər.

*Xəzər Universitəsinin Sözlük və Ensikmopediya Mərkəzinin* fəaliyyətini xüsusilə qeyd etmək, vurğulamaq lazımdır. Adından belə onun olduqca səmərəli işinin səciyyəsi, mədəni, elmi dünyamızda oynadığı böyük rolu aydınca duymaq olar. Sözlük və Ensiklopediya Mərkəzi həyatımız üçün müstəsna əhəmiyyətə malik çətin, mürəkkəb tədqiqatlar aparır. Azərbaycanca-inkiliscə və inkiliscə-azərbaycanca böyük sözlüklər tərtib edir. Bu sahədə respublikamızda indinin özündə də nəzərə çarpacaq təcrübə azdır. Elə bunu demək kifayətdir ki, hələ bir dənə belə sanballı inkiliscə-azərbaycanca lüğət yoxdur. Bu boşluğu aradan qaldırmağı "Xəzər"in dilçi-tədqiqatçıları öz üzərlərinə götürüblər.

Bilavasitə universitənin rektoru, professor Hamlet

İsaxanlının rəhbərliyi, birbaşa iştirakı və gündəlik qayğısı altında adicə sözlük deyil, tərtibi ağır zəhmət, dərin axtarış, səbir və böyük məsuliyyət tələb edən müqayisəyəgəlməz çoxcildli, genişəhatəli, mükəmməl ikidilli və çoxdilli sözlüklər yaradılır .

Tərtibçilər sözlükdə hər sözün müxtəlif məna çalarlarını, morfoloji formalarını, sintaktik funksiyalarını açıqlamağa çalışır, onların yaxşı yadda qalmaları üçün çoxsaylı misallara yer verirlər.

Şübhə yoxdur ki, Sözlük və Epsiklopediya Mərkəzinin alim və tərtibçilərinin bu həyatyüklü əməyi elmi ictimaiyyət, şakird və tələbələr, müəllimlər və tərcüməçilər, müxtəlif sənət sahibi insanlar üçün əvəzsiz hədiyyə, sözün əsl mənasında, stolüstü kitab olacaq.

Xəzər Upiversitəsində elmi-tədqiqat işləri departamentlər, universitə nəzdində fəaliyyət köstərən institut və elmi mərkəzlər vasitəsilə aparılır. Bunlarla yanaşı, çoxsaylı və sanballı ***konfranslar,*** elmi seminarlar da keçirilir. İndiyədək bu təhsil ocaqında elmin müxtəlif sahələrinə, təhsilə, tarixə, mədəni dəyərlərimizə, respublikamızda ictimai-siyasi fikrin durumuna həsr olunan çoxsaylı konfrans və elmi seminarlar keçirilib. Dinlənilən bütün məruzə, araşdırma, çıxışlar nəfis yüksək çap mədəniyyəti ilə diqqəti cəlb edən xüsusi toplularda cəmləşdirilib.

Elmi araşdırmalara təkan verən ən mühüm cəhət- lərdən biri də Xəzər Universitəsində çox keniş spektrdə *makistraturanın* fəaliyyət göstərməsidir. Mühəndislik və təbiət elmləri, biznes, iqtisadiyyat və idarəetmə, Hüгuq və siyasi elmlər, xarici dillər, ədəbiyyat, təhsilin təşkili və idarə olunması... “Xəzər"in makistraturasında öz məzunları ilə yanaşı, xarici ölkələrdə (o cümlədən Avropa və Amerikada) ali təhsil almış kənclər, müxtəlif dövlət və özəl universitələrinin məzunları,

tanınmış xarici şirkət əməkdaşları təhsil alırlar. Amerika Birləşmiş Ştatlarının Atlanta şəhərində yerləşən Corciya Dövlət Universitəsi ilə birgə həyata keçirilən biznes idarəçiliyi üzrə magistraturanı xüsusi qeyd etmək lazımdır. Burada hər semestr təcrübəli amerikalı professorlar dərs deyir, azərbaycanlı həmkarları da həm Bakıda, həm də Atlantada onlarla bərabər çalışırlar.

***Mak Donald***
***(Doktor, Amsterdam Universitəsi, Niderland)***

*"Sizi biznes idarəçiliyi üzrə ABŞ Corciya Dövlət Universitəsi ilə birlikdə magistr dərəcəsi verilməsi işinin təşkil olunmasını başa çatdırdıqınıza görə təbrik edirik! Bu, çox məsuliyyətli bir işdir və hər bir universitənin həyatında irəliyə doğru nəhəng bir addımdır.*

*Biz Xəzər Universitəsindən yeni yaradıcılıq uğurları eşitməyə adət etmişik".*

hal-hazırda "Xəzər"də təbiət elmləri, sosial elmlər və humanitar elmlər sahəsində bir sıra doktor dərəcəsinə aparan elmi-tədris proqramları da mövcuddur.

Xəzər Universitəsinin kenişmiqyaslı elmi-tədqiqat işlərinə üstünlük verməsinin bir təzahürü də öz *elmi jurnallarını* nəşr etməyə başlamasıdır. İnkilis dilində nəşr olunan "Xəzər riyaziyyat jurnalı" riyaziyyatçı alimin öz sevimli riyaziyyatına sadiqliyi ilə yanaşı, ölkəmizdə riyaziyyatın inkişafına mühüm təkan kimi qiymətləndirilməlidir.

"Azerbaijani Studies - Azərbaycan araşdırmaları" elmi jurnalı isə Azərbaycan və onunla əlaqədar siyasət, iqtisadiyyat, hüquq, tarix, dil və ədəbiyyat, mədəniyyət üzrə tədqiqatları özündə cəmləşdirən dünyanın müxtəlif guşələrində öz araşdırmalarını Azərbaycanla bağlayan alimlərin tribunasıdır.

Hər iki jurnalın redaktoru H. İsaxanlı kələcəkdə başqa sahələrdə də elmi məcmuələrin nəşrinə yardım etməyi düşünür.

## “XƏZƏR”İN SORAĞINDA

...Bu başucalığı, bu yüksəklik birdən-birə kəlməyib. Gərgin zəhmət bahasına, iradəyə, səbrə başa kəlib. Yolunda boran da olub, qar da. Aydın səmasında şimşəklər də oynayıb, yer də ayağının altından qaçıb. Keçirdiyi hisslər, həyəcanlar, yəqin ki, unudulmayacaq, çox güman ki, vərəqlərə hopacaq, yaradıcısının ifasında işıqlanacaq. . .

*"Universitədə oxuyacaq tələbələri seçmək üçün qəbul imtahanlarına hazırlaşırdıq. Lazımi sənədləri qaydaya salmışdıq. Abituriyentlər üçün məsləhət saatlarının təşkil edilməsi, abituriyent və valideynlərlə imtahanqabağı görüşlər keçirməyi də nəzərdə tutmuşduq.*

*Xalq təhsili naziri ilə şəxsi əlaqəsi olan, adamları qiyabi şəkildə güləşdirməkdən həzz alan bir gənc lovxəbərlə yanıma gəldi:*

*-Nazir "Biz hamletdən geri çəkilirik!" komandası verib. Sizə tövbə dərsi verəcəklər!..*

*Düzü, mənə necə "dərs" verəcəklərini araşdırmaq həvəsində deyildim. Qurani - Kərimdə belə buyurur: "Bilmədiyin bir şeyin dalına düşmə, buna körə qulaq, köz və ürək-hamısı sorğuya çəkiləcəklər".* (XVII, 36/38)

*Onda "Xəzər" Xalq Təsərrüfatını İdarəetmə İnstitutu nəzdində idi. Məni institutun rəhbəri yanına çağırdı.*

*Gözümə çox fikirli göründü. Mənim ona zillənmiş sual dolu baxışmarımı görüb:*

*-Xalq Təhsili Nazirliyindən zənk etmişdilər. Burada ol. Komissiya kimi bir şey gələcək. İşini yoxlayacaqlar, - dedi.*

*-Nə işimi?- Özümdən asımı olmayaraq söz-söhbətlərdən bezdiyimi hiss etdirdim. Digər tərəfdən isə əlavə məlumat almaq istədim.*

*-İndi gələrlər, görərik. Allah axırını xeyir eləsin.*

*Təhsil Nazirliyinin nümayəndə heyətinə nazirin birinci müavini başçılıq edirdi. O, üzümə baxmadan sözə başladı:*

*-Nazirlikdə tələbə qəbulu üzrə hazırlığınız yoxdur fikri yaranıb. Belə qərara gəlmişik ki, bu işi dayandıraq. Akt tərtib etmişik.*

*Sənədi oxumağa başladılar. Həqiqətdən çox-çox uzaq yazılmışdı.*

*Başladığım işi dayandırmaq fikrində deyildim. İliklərimə işləmiş bu ideyanı həyata keçirməyi sadəcə özümə borc və vəzifə bilirdim.*

*Akta qol çəkmədim. Mətnlə qəti razılaşmadığımı bidmirdim. Bu, usyan idi. "Özümü cəmiyyətə qarşı qoymaq" idi. Və buna beləcə də qiymət verildi.*

*Məsələ böyüdü. Baş nazirin yanına gedib çıxdı. Dinmədi. Gördüyümüz işlər barədə onda son dərəcə yanmış təsəvvür yaratmışdılar (qərəzin dönə-dönə sınaqdan çıxarılmış klassik forması).*

*Baş nazirin qərarı belə oldu: Universitənin hazırlıq şöbəsinə tədəbə götürməklə "Xəzər" fəaliyyətinə davam etsin.*

*Təbii inkişaf yolunu baxmasalar da, müəyyən cığırla irəliləməyə imkan verildi. Nə olursa - olsun. "biz yenə yaşadıq torpaq üstündə!"*

*Əhmədli qəsəbəsində yerləşən 240 saylı uşaq bağçasında məskən saldıq. Universitəmizin körpəlik dövrü bu binada keçdi. Sonralar bir neçə dəfə yeni binalara köçdük.*

*1992-ci ildə birinci kursa müxtəlif ölkələrdən gələn 200-ə yaxın tələbə qəbul etdik. Opera və Balet Teatrında təntənəli açılışımız oldu..."* ("Xəzər-Vyu" qəzeti. Fevral-mart 1997-ci il. "Xəzərin sorağında". H.İsaxanlı).[71]

[71] Hamlet İsaxanlı. İn search of "Khazar"/ "Xəzərin" sorağında / В поисках «Хазара». Khazar University Press / Xəzər Universitəsi Nəşriyyatı, Baku / Bakı, 2006.

Beləliklə, universitənin ərsəyə gəlib, ayaq açıb yeriməsi üç mərhələ keçdi:

-1990-cı ilin payız aylarında Xəzər Universitəsinin yaradılması sahəsində ilk addımlar atıldı.

-1990-cı ilin dekabrında Nazirlər Soveti onun yaradılması üçün hazırlıq işləri barədə sərəncam verdi.

-1991-ci il mart ayının 18-də Azərbaycan Respublikası Nazirlər Kabineti "Xəzər" adlanacaq universitənin yaradılması haqqında qərar çıxartdı.

*Yeni bir "Xəzər" dunyaya gəldi!*

*Və o zamandan başlayaraq universitə yüksək ixtisaslı mutəxəssis yetişdirən, vətəndaş hazırlayan, hər tələbənin çevik tədris planları içərisində individuallığını nəzərə alan, milli və bəşəri dəyərlərə əsaslanan təhsil qurumuna, yalnız layiqlilərin məzun olmasını təmin edən bir elm ocağına çevrildi.*[72]

Sevildi, bəyənildi, təqdir olundu Xəzər Uiiversitəsi. Şöhrəti aləmə yayıldı. Çoxlu dostlar qazandı. Amernka Birləşmiş Ştatları, Böyük Britaniya və digər ölkələrin səfirləri tez-tez buraya gəlib-getməyə başladılar. Kömək etdilər. Yüzlərlə xarici alim və mütəxəssislərin həvəslə dərs dediyi bir yerə çevrildi “Xəzər”. Lakin sevinməyənlər də oldu, paxıllıq edənlər də, pislik edənlər də.

Öz yolunda xeyli gizli, üstüörtülü və açıq maneələrə rast gəldi “Xəzər”. Səması dönə-dönə bulud bağladı. Tibb fakültəsi hədələrə məruz qaldı. Özəl universitədə tibb fakültəsi? Bu, necə ola bilər? Yenilikdən çəkinənləri, rəqabətdən qorxanları sakit buraxmadı bu fikir.

Dərslər ingilis dilində aparılacağına görə ehtiyatda olan bir il ərzində onun üçün xüsusi proqram işlənildi. İki məşhur Amerika tibb mərkəzinin: harvard Universitəsi və Kaliforniya

[72] Hamlet İsaxanlı. İn search of “Khazar”/ “Xəzərin” sorağında / В поисках «Хазара». Khazar University Press / Xəzər Universitəsi Nəşriyyatı, Baku / Bakı, 2006.

Universitəsi tibb fakültələrinin tədris proqramları köklü şəkildə araşdırıldı. Əsas kimi götürüldü. Yalnız bundan sonra Hamlet İsaxanlının öz iştirakı ilə fakültədə dərs deyəcək mütəxəssislərii seçimi başlandı. Peşələrinin əsl sahibləri işi dəvət olundu. Ölkəmizdən və Norveçdən, Türkiyədən İrandan, Pakistandan, Banqladeşdən, Hindistandan gələn gənclər ciddi yoxlamadan keçib fakültədə oxumaq hüququ qazandılar.

Tezliklə, olduqca qısa müddətdə fakültə üçün laboratoriyalar yaradıldı. Bakının bir sıra iri klinikaları ilə razılaşmalar əldə edildi. Dünyanın bir sıra tibbi qurumları ilə yaxın əlaqələr yaradıldı. Sürətli inkişaf göz qabağında idi. Nəticədə... fakültəyə güclü hücumlar başlandı.

Dedi-qodular, hədələr, şayiələr. . .

Hamlet İsaxanlı özü bu dövr barədə deyir: *"Geri çəkilmək fikrində deyildim. Hətta yaradılmış qarmaqarışıqlıqdan və tələbələrimizin Dövlət Tibb Universitəsinə keçməsinə icazə verildikdən sonra da bir sıra əla oxuyanlar və demək olar ki, xaricilərin hamısı bizim tibb fakultəmizdə təhsillərini başa vurmaq istəyirdilər. Amma gördüm ki, bu fakultənin qayğıları bütün vaxtımı aparır. Digər fakültələrin işi diqqətimdən yayınır, zəifləyir. Tibb fakültəsinə görə müdafiədə dayanmalı, künahkar və zəif tərəf kimi əsassız hücumlara məruz qalmalı olmuşdum. Özüm öz əmrimlə fakultənin fəaliyyətini dayandırdım. Atalar yaxşı buyurub: hər şeyin öz vaxtı, öz məqamı var. Məhz indi o vaxt gəlib çatıb. Tezliklə tibb fakultəmizi açacağıq".*[73]

Azərbaycanda dünya təhsil təcrübəsini yaymaqa çalışdı. *"Təhsili idarə edənlər, təhsil verənlər və təhsil alanlar dünyada nələr baş verdiyini nə qədər dərindən bilsələr, o*

[73] Hamlet İsaxanlı. İn search of "Khazar"/ "Xəzərin" sorağında / В поисках «Хазара». Khazar University Press / Xəzər Universitəsi Nəşriyyatı, Baku / Bakı, 2006.

*qədər işimiz irəli gedər",*[74] - deyə H.İsaxanlı nəzəri və təcrübi uğurlarını gizlətmədi, əksinə, onları qəzet, jurnal, radio, televiziya vasitəsi ilə marağı olan hər kəsə təqdim etməyə çalışdı.

Aylarla, illərlə yolçusu olduğu təhsil-elm yollarını, ömrünün ən yetkin çağlarını həsr etdiyi Xəzər Universitəsi quruculuğunu "Xəzərip sorağında" adlı bədii-publisistik yazısı ilə işıqlandırdı.

Giriş sözlərində yazdı: *"Xəzər Universitəsinin yaradılması və inkişafı ilə bağlı gerçəklər xatirimdə silinməz izlər buraxmışdır. Hadisələri düşüncəmin süzgəcindən keçirərək olduğu kimi, tam səmimiyyətlə oxuculara çatdırmaq iddiasındayam. Ümid edirəm ki, "Xəzər "in sorağında keçirdiyim günləri yenidən və sizinlə bərabər yaşayacağıq".*[75]

Həyəcansız oxumaq mümkün deyil H.İsaxanlının "Xəzərin sorağında" əsərini... Müəllifində qovuşan təfəkkür və əməl oxucusunda böyük hörmət və sevki hissi doğurur.

"Azərbaycan təhsil sistemində öz keyfiyyətinə və orijinallığına körə "Xəzər" birincidir", - deyirlər. "Elmi araşdırmatarın ən münbit ocağı Xəzər Universitəsidir" - söylənilir. "Xəzər Universitəsi yüksək mədəniyyət ocaqıdır, orada bir ahəpk, bir aydınlıq, bir ürəyəyatımlılıq var, bir cazibə var" - sözləri çox tez-tez və çox yerlərdə danışılır, eşidilir. Yaradıcısına bənzəyir, onun arzusu göylərdən yerə enib, onun iradəsnnin, onun əməllərinin məhsuludur.

"Xəzər" gözə işıq gətirən, qəlbə sevinc bəxş edən sərvətə sahibdir. Səbirlə, inadla, ilhamla yaradılan bir sərvətə. Onu hamı görür, hamı qəbul edir. Qısa müddətdə yaradılmış,

[74] Hamlet İsaxanlı. İn search of "Khazar"/ "Xəzərin" sorağında / В поисках «Хазара». Khazar University Press / Xəzər Universitəsi Nəşriyyatı, Baku / Bakı, 2006.
[75] Hamlet İsaxanlı. İn search of "Khazar"/ "Xəzərin" sorağında / В поисках «Хазара». Khazar University Press / Xəzər Universitəsi Nəşriyyatı, Baku / Bakı, 2006.

müəllimlərin və tələbələrin, qonaqların və universitəxarici oxucuların sevdiyi, günlərini keçirdiyi kitabxana. Ali məktəbin yaradıldığı gündən *"kitabxana universitənin bir nömrəli bölməsidir, onun canıdır* " - deyən H.İsaxanlı Türkiyədən, Amerikadan, İngiltərədən, İrandan, Hindistandan... minlərlə kitabı şəxsən alıb gətirmişdir. İndi müəllimlər, məzunlar, "Xəzər"in dostları da kitabxananı yeni-yeni dərsliklər, tədqiqat topluları, məlumat kitabları ilə zənginləşdirməyə çalışırlar.

Bir sıra laboratoriyalar qurulmaqdadır, hamlet müəllim "qurulmuşdur" sözünü sevmir, "Amerika və Avropaya baxanda biz geri qalırıq, çox nəhəng olmasa da, işlək və yığcam laboratoriyaların qurulması həyati vacib məsələdir", - deyir. hər halda buradakı kompüterlərin son modellərdən ibarət olduğuna şübhə yoxdur, onların bir an belə istifadəsiz qalmadığı da göz qabağındadır. Bu ali məktəbdə hamı sanki yaxşı mənada bir "kompüter xəstəli- yi"nə tutulubdur, kompütersiz həyatı heçlik, boşluq hesab edirlər.

Nəşriyyat həyatının doluluğu da gözəçarpan cəhətlərdəndir. Öz üçdilli qəzetləri burada hazırlanır, müəlliflər Azərbaycan, ingilis və rus dillərindəki məqalələrini burada dərc edirlər. Xəzər Universitəsi Nəşriyyatı (Khazar University Press) tərəfindən orta məktəblər üçün vəsaitlərdən, memuar ədəbiyyatından başlamış, ali məktəb dərslikləri, monoqrafiyalar, elmi konfransların əsərləri, elmi jurnallar, başqa dillərdən tərcümə edilən əsərlərə qədər çoxsaylı kitablar, toplular hazırlanır və çap olunur. İngiltərədən dəvət edilmiş müeəxəssisin köməyilə burada mətbəə də qurulmuşdur. Xəzər universitəsinin yeməkxanası haqqında ön sözlər deyilə bilər. Tərtəmiz, gözəl zallar, yaraşıqlı stol-stullar, keyfiyyətli yeməklər, ucuzluq tələbəni də, müəllimi də cəlb edir. Buraya tək yemək üçün deyil, istirahət etmək, dostlarla

görüşmək, oxumaq-yazmaq məqsədilə də gəlirlər.

"Neftçilər" metrosu yaxınlığında, Məhsəti küçəsində yerləşən universitə binasının (bu, universitənin məskunlaşdığı tək bina deyil) həyəti gündən-günə gözəlləşməkdədir. Burada iki il əvvəl əkilmiş ağaclar artıq qol-budaq atmış, hasar boyu əkilmiş gül-çiçəklər isə öz ətrini ətrafa yaymaqdadır - həyətdə zövqlə, cərgələrlə səpilmiş yaşıl otlar göz oxşayır. Deyilənə görə, bu ot toxumlarını hamlet müəllim özü Amerikadan və İngiltərədən gətirmişdir. Onu təkbaşına bu yaşıl otların yanında gəzişən, düşünən görürlər. Yenə "Xəzər"in sorağındamı bu düşüncələr, yoxsa yazılacaq kitablar haqqındamı? Çox güman ki, bu yaşıl otlar kənarında yeni-yeni ideyalar yaranmaqdadır...

## *"XƏZƏR"DƏ TƏLƏBƏLİK HƏYATI VƏ MƏZUNLUQ ŞƏRƏFİ*

Xəzər Universitəsi təhsildə çox orijinal və iri addımlar atır, heç kimə bənzəmir, heç kəs "Xəzər"ə bənzəyə bilmir. Səbəblərini tam izah edə bilməsək də, bəzilərini, şəksiz-şübhəsiz, göstərə bilərik. Mayasının halal yoğrulması. Alim və ziyalı insanların işə cəlb edilməsi. Geniş beynəlxalq əlaqələri. Ciddilik və səlistlik... Amma bir cəhət xüsusi qeyd olunmalıdır - H. İsaxanlının ilk günlərdən addım-addım həyata keçirdiyi çox çevik və çox ədalətli yeni təhsil modeli. Dünya təhsil təcrübəsini nəzərə alan, dərin müşahidə və təhlilə əsaslanan təhsil-tədris pripsipləri. Bunları öyrəndikcə heyrət edirsən, sanki başqa bir aləmdə, başqa bir ölkədəsən. Tələbələrin bir-biri ilə məsləhətləşərkən "Universitə tələbləri", "Ümum təhsil tələbləri", "Neçə kreditli dərsdir?", "Mi- nor dərslər", "Ci-pi-eyin neçədir?" kimi ifadələri necə tez-tez işlətdiklərinin şahidi olursan. Bura da birinci kurs, ikinci kurs... kimi anlayışlar bizim bildiyimizdən çox-çox fərqlidir. Burada "kəsir ləğvi" deyilən şey yoxdur, imtahan verə bilmədiyin fənni yenidən oxumalısan və s. və i. a.

Tələbələrin Azərbaycanın ən çətin, ən ağır ali məktəbində özlərini iecə xoşbəxt hiss etdiklərini nə ilə izah edə bilərsiniz? Burada 4 il tamam olduqda tələbələrin ən çoxu 25-30 faizi

universitəni bitirir, digərləri isə daha bir semestr, hətqa daha bir il oxumalıdırlar. Zəif, geriyə qalan tələbələrdən başqa ali məktəblərə gedənlər də olur. Başqa ali məktəblərdən güclü, savadlı tələbələrip "Xəzər"ə keçməsi isə burada adi, tez-tez rast gəlinən hadisədir.

Universitədə fəaliyyət göstərən Tələbə Birliyi (Tələbə Məclisi) xüsusi struktura malik tam müstəqil bir təşkilatdır. Rektor qarşısında, universitə şurası qarşısında mə'lum zaman intervalında cavab tələb etmək hüququna malikdir.

Tələbə həyatını işıqlandıran "Khazar View" ("Xəzər-Mənzərə") adlı qəzet üç dildə - azərbaycanca, rusca, ingiliscə çap olunur. Tələbələr də, müəllimlər də, xaricdən də'vət olunmuş professorlar da burada məqalə yazırlar. Maraqlı müsahibələr, elm, təhsil və mədəniyyət yenilikləri, lətifələr, müsabiqələr, təbriklər bu qəzetə rəngarənglik verir.

Universitə tələbələri tam tələbə həyatı keçirirlər. Qızlardan və oğlanlardai ibarət rəqs ansamblı tanıpmış əməkdar artistlərin rəhbərliyi altında məşq edir, ustalaşır, tək Azərbaycanda deyil, xarici ölkələrdə də çıxış edənləri var. Eyni sözlər vokalçılara da aiddir.

"Xəzər" gənclik məskənidir, burada idman çox sevilir, qısa zaman içində irəliyə doğru mühüm addımlar atılmışdır. Basketbol komandası yüksək liqaya çıxmış, futbol komandası peşəkar səviyyəyə çatmış, şahmatçıları çempionluq adı qazanmışdır...

"Xəzər"in mə'zunu olmaq isə böyük şərəfdir. "Xəzər"i bitirmək zarafat deyil ki. "Xəzör"in mə'zunluq diplomunu alanlar əl-əl gəzilir, ən məşhur şirkətlərdə çalışır, xarici ölkələrdə də işləyir və ya təhsilləriii davam etdirirlər, lakin "Xəzər"i heç zaman unutmurlar. "Xəzər" də onları unutmur, öz konfrans və toplantılarına, yubiley və tamaşalarına dəvət edir, qəzetində dövri olaraq onlar haqqında yazılar dərc edir.

hələ “Xəzər”in mə'zunluq təntənəsini demirik. Bunu təsvir etmək, bunu təsəvvür etmək asan iş deyil. Xüsusi mantiyalar geymiş mə'zunların xoşbəxtlik yağan üzlərini görmək, onların “Xəzər Universitəm" mahnısını ifa etmələrinə tamaşa etmək. “mə'zunluq andını” içməsinə həyəcansız baxmaq mümkün deyil.

Tələbələri qoynunda qol-qanad açdıqları univer- sitələri ilə fəxr edirlər. Onlar çətin, mürəkkəb həyat yolunda ölkə, cəmiyyət qarşısında çiyinlərinə düşən ağır məs'uliyyəti hər ap hiss edir, diplom alarkən Hamlet İsaxanlı qələmindən çıxan ləyaqət, yetkinlik andını içir, sevimli universitələrindən müstəqil həyata sağlam vəsiqə ilə daxil olurlar:

*"Xəzər Universitəsində əldə etdiyim bilik və bacarığı tətbiq edərək ailəm, xalqım və vətənim üçün faydalı olacağıma and içirəm!*

*Xəzər Universitəsinin şərəfini qoruyacağıma and içirəm!"*

Tələbə diplomu ilə, diplom isə adı, soyadı şah varağında yazılan tələbənin biliyi, savadı, şəxsiyyətilə öyünür...

***Emil Əliyev***
***(hüquq və sosial elmlər fakultəsinii tələbəsi):***

*"...Xəzər Universitəsinin öz tələbələrinin dunyagörüşündə yaratdığı yeni aləm barəsində böyük kitab yazmaq olar. Əgər bu gün Azərbaycanda bu dərəcədə yüksək səviyyəli universitə yaratmaq mümkün olubsa, deməli, daha böyük zirvələr fəth etməyə hazırmaşırıq. Mən öz universitəmlə fəxr edirəm ”.Kamran huseynov (Xəzər Universitəsinin mə'zunu): "...Məncə, "Xəzər" qüsurları, səhvləri daima aradan qaldırmaq istəyinə və yenilikləri ağıllı surətdə, mərhələ-mərhələ tətbiq etdiyinə görə belə şöhrət qazanıb. Zənnimcə, bu universitə öz şöhrətini heç vaxt itirməyəcək və*

*ən elitar ali məktəb statusunu özündə qoruyub-saxlayacaqdır".*

*Şəfəq Mehrəliyeva*
*(Universitə Tələbə Məclisinin sədri):*

*"Xəzər Universitəsi Azərbaycanda ən umidverici və perspektivli təhsil ocaqlarından biridir, daha doğrusu, birincisidir desək, səhv etmərik. Burada tələbənin mənafeyinə, onların hərtərəfli şəxsiyyət kimi yetişməsinə çox diqqət yetirilir. Dünya ölkələrinə çıxış üçün "Xəzər" üzümüzə açılan bir qapıdır. Bugünkü "xəzərlilərin" sabah respublikamızın idarə olunmasında aparıcı rol oynayacaqına şübhə etmirəm ".*

***Professor Hamlet İsaxanlı***
***(Xəzər Universitəsinin rektoru):***

*"...Təhsili az-çox bilən adam kimi tam qətiyyətlə və səmimiyyətlə deyirəm: əgər mən bu gün Azərbaycanda ali təhsil almaq istəsəm, yalnız "Xəzər"də oxuyardım".*

1996-cı il sentyabr ayının 28-i Xəzər Universi- təsinin tarixinə qızıl hərflərlə yazılan fərəhli və unudulmaz bir gün kimi həkk olunub. İlk mə'zun sevinci, ilk ali təhsil diplomu fərəhini hiss edib.

***Kristal Haus***
***(İngilis Dili Tədris Mərkəzinin əməkdaşı, ABŞ).***

*"...Xəzər Universitəsinin kollektivinə əldə etdiyi nailiyyətlər münasibəti ilə ürəkdən gələn təbriklərimi göndərirəm.*

*Mən Hamlet müəllimə xususi təbriklərimi göndərirəm ki, onsuz bu nailiyyətlər əldə edilə bilməzdi..."*

"Xəzər" qapılarını açarkən az adam tanılarlı ki, onun öz himni, öz rəmzləri olacağına, şirinli- acılı günlərində onunla çiyin-çiyinə addımlayacaq sədaqətli dostlar qazanacağına, ilk

mə'zunlarını yola salacağına inana idi.

Lakin o günlər geridə qalıb. Universitə salnaməsinin səhifəsinə çevrilib. Gerçəkliksə bambaşqadır! İndi o tanınmış beynəlxalq təhsil, elm və mədəniyyət mərkəzidir. Dünyanın hər yerində dostları da var, respublikamızda və onun hüdudlarından uzaqlarda öncül şirkət, müəssisə və idarələrdə vicdanla çalışan mə'zunları da, öz himni də var, şöhrəti də aləmə yayılıb.

Himnin sözləri universitənii rektoru hamlet İsaxanlının, musiqisi görkəmli bəstəkarlar. Azərbaycanın xalq artistləri Vasif Adıgözəlov və Ramiz Mustafayevindir.

Bu, adi himn deyil. Qələbə, inam, nailiyyət, axtarış sevənlərin himnidir. Onu "Xəzər"in müəllimi də, tələbəsi də, mə'zunu da sinədolusu oxuyur.

Xəzər Universitəsinə nəğmə deyin, "Xəzər"ə himn oxuyun!

Xəzər Universitəm

Xəzərimin sahilində, əzəmətli Bakımda
Dünyamıza şəfəq saçar Xəzər Uiiversitəm.
Şe'r, sənət, insaniyyət dərslərindən pay verər,
Kainatın sirrin açar Xəzər Universitəm.

həyat dolu qucağıdır,
Könlümün saf bucağıdır,
Xoş niyyətlər ocağıdır
Xəzər Uiiversitəm.

Gəncliyimin qaynar çağı,
Dəryaları, uca dağı,
Gül-çiçəkli sevki bağı-
Xəzər Universitəm.

Adı elə bəlli oldu, ölkə-ölkə arandı, Qucağında pıçıldandı neçə-neçə yar andı. Mə'na doldu həyatıma, zirvələrə can atdım, İlhamımın gur bulağı Xəzərimdən yarandı. həyat dolu qucağıdır,
Könlümün saf bucağıdır,
Xoş niyyətlər ocaqıdır
Xəzər Universitəm.

Gəncliyimin qaynar çağı,
Dəryaları, uca dağı,
Gül-çiçəkli sevki bağı-
Xəzər Universitəm.

## *HAMININ QƏBUL ETDİYİ LİDER. HAMIYA BƏRABƏR İNSAN*

Tanrı Hamlet İsaxanlıya iste'dadla yanaşı, rəhbər-lider, təşkilatçılıq bacarığı, geniş dünyagörüşü, möhkəm iradə, nikbinlik, insanpərvərlik də bəxş etmişdir. O, keçmiş zamanlardakı universal zəka sahiblərini, mənəviyyatları ilə nəsillərə örnək olan ziyalılarımızı xatırladır.

Tanınmış Moskva riyaziyyatçısı A.A. Dezinin riyaziyyatçı h.İsayevi qiymətləndirən sözləri əslində çox həssas bir müşahidənin nəticəsi kimi Hamlet şəxsiyyətini bütövlükdə səciyyələndirir. "...Geniş bilik sahibi, çətinliklərin öhdəsindən çox ustalıqla gələn, maraqlı və yeni məsələlər üzə çıxarmağı və həll etməyi bacaran..."

Doğrudan da, Hamlet İsaxanlının liderliyi möhkəm bünövrə üzərində dayanmışdır. İrimiqyaslı işləri planlaşdıran və həyata keçirən bu insan çox geniş dünyagörüşünə malikdir, dərin və rəngarəng bilik sahibidir.

İncə təhlil, alqoritmik düşüncə və duyma qabiliyyəti məsələlərin orijinal həllini tapmaqda ona kömək edir.

Xeyirxah, mehriban, gülərüz olduğu qədər də ciddidir, dəqiqdir, prinsipialdır. Qarşısına qoyduğu məqsədə nail olmaq üçün düzgün, dürüst yol seçir. Və yolundan dönmür. Səbirlə, ötəri işlərə baş qoşmadan düşünə-düşünə, addım-addım, eyni

zamanda inadla, inamla irəliləyir.

Yüksək davranış mədəniyyəti, təvazökarlığı, il- hamvericiliyin alim və ziyalıları onun ətrafına cəzb edir.

Həlledici addımların müəyyən edilməsindəki qətiliyi, qərar qəbuletmə məsuliyyətini öz üzərinə götürməsi danılmazdır. O, bunlarla yanaşı, ən yaxşı bildiyi və əvvəlcədən hansı qərar qəbul edəcəyi bəlli olan məsələni belə ətrafındakılarla müzakirəyə çıxarır. Hiss olunur ki, ona hörmət edirlər, onu lider kimi qəbul edirlər, onu sevirlər. O isə həmişə hamıya bərabər olduğunu, heç kimdən yuxarıda durmadığını, bütün hərəkətləri ilə, bütün səmimiyyəti ilə ortaya çıxarır. Başqalarının uğurlarına sevinmə qabiliyyəti, dərdlərinə və qayğılarına şərikolma xüsusiyyəti göz qabağındadır.

***Van Dzen Bo***

***("Çin gəncliyi" qəzetinin xususi muxbiri):***

*"...Mən universitənizin rektoru və yaradıcısı,* ***fizika-riyaziyyat*** *elmləri doktoru, professor* ***h. İsaxanlıya*** *bir insan kimi, bir alim, bir elm* ***fədaisi*** *kimi böyuk rəğbət bəsləyirəm. O, olduqca* ***qısa*** *müddət ərzində son dərəcə urəkaçan nailiyyətlər əldə edib".*

Hər bir işçiyə fərdi yanaşmağı bacarır. hər bir şəxsin potensial imkanlarının meydana çıxması üçün şərait yaradır. Ədalətli əmək bölgüsü həyata keçirir. Sözü və işi vəhdət təşkil edir, vədinə əməl edir.

Xeyriyyəçilik də edir, darda qalanlara, ehtiyacı olanlara, xüsusilə iste'dadlılara hamilik edir, maddi yardım göstərir. O, xeyriyyəçiliyi təbliğat naminə, siyasi kapital toplamaq naminə etmir. Xətai rayonundakı kimsəsiz uşaqlara hamilik edəndə də, qaçqın balalarına yardım edəndə də, elm və mədəniyyətimizin inkişafına kömək göstərəndə də, ancaq qəlbinin hökmü ilə hərəkət edir. h.İsaxanlı "Xəzərin sorağında" yazır: *"Mən xeyriyyəçilik edən bir fonda rəhbərlik etməyi, tələbələrə təhsil*

*haqqı üçün pul verməyi, tədqiqatçılara qrant verməyi qat-qat üstün tutardım".*

H. İsaxanlı vətənpərvər, öz xalqını ürəkdən sevən, azərbaycanpərəst bir şəxsiyyətdir. O, Azərbaycan həqiqətlərinin, mədəniyyətinin dünyada tanınması üçün əlindən gələni əsirgəmir. ABŞ-la nəşr olunan "Dünya ədəbiyyatı bu gün" jurnalının redaktoru Calal Kadiri ilə sıx əlaqə saxlayaraq bu jurnalda Azərbaycan ədəbiyyatı nümunələrinin çap olunmasını təşkil etməsi kimi misalları xeyli çoxaltmaq olar. Xarici mütəxəssislərin diqqətini Azərbaycan problemləri ilə bağlı məsələlərə cəlb etmək istiqamətində xeyli uğurları vardır.

***Uilyam Roy***
***(Doktor, Los-Ançelesdəki Kaliforniya Universitəsi, ABŞ):***

*"Yeni bir qurum yaratmaq üçün geniş qaynaqları hərəkətə gətirən, tənzimləyən və cəmləşdirən bir şəxsiyyəti təsvir edərkən sosioloqlar "qurum yaradıcısı" terminini işlədirlər. Mən bə'zi cəmiyyətlərdəki iste'dadlı və görkəmli şəxsiyyətlər haqqında sinifdə, yaxud həmkarlarımla müzakirə apardıqda qurum yaradıcısı misalı kimi həmişə Sizi göstərirəm. Siz Sovetlər Birliyi dağıldıqdan sonra və uzun illər sürən müharibədən sonra zəifləmiş bir cəmiyyətdə ali təhsil verən bir qurum yaratmağa nail olmusunuz.*

*Filosoflar və jurnalistlər Xəzər Universitəsinə tə'riflər yazmalıdırlar. Çünki bu universitə, həqiqətən, insan ruhunun yuksəkliyinin əyani təsdiqidir. Sosioloqlar isə belə bir qurumun nədən başqasında deyil, məhz bu cəmiyyətdə yarandığını araşdırmalıdırlar. Bu suala cavabın böyuk hissəsi, sözsuz ki, Sizin kimi qabiliyyətli bir şəxsin olmasıdır*".

Onun müstəqil düşüncə tərzi nikbinliyindən, öz gücünə inamdan, natiqlik ustalığından qidalanaraq ətrafına siyasət edən, ətrafını dəyişdirən bir qüvvəyə çevrilir.

***İsmət Əhmədov***
***(Dosent, Xəzər Universitəsi):***

*"Tanış olduğum az bir müddət ərzində Hamlet müəllimdə iki mühüm keyfiyyət aşkar etdim.* ***Bunlardan*** *birincisi, onun müstəqil olmasıdır. İkinc**isi,** hamlet müəllimin hamıdan fərqli olaraq, ən çətin anlarda belə işkayət etməməsidir.* ***Bu*** *keyfiyyət də məncə, onun müstəqilliyindən, məsələni öz gücü ilə həll etmək istəyindən və inamından irəli gəlir ".*

***Nairə Tohidi (Doktor, Los-Ancelesdəki Kaliforniya Universitəsi, ABŞ):***

*""Xəzər"in rektorunun demokratik fikirlərindən, nikbin perspektiv planlarından olduqca razıyam. Onun yaratdığı Xəzər Universitəsi ilə fəxr edirəm ".*

İlk baxışda bəzən adamauyuşmaz, qaradinməz adam təsiri bağışlayır. Danışmaqdan çox dinləməyi sevənə oxşayır. Lakin qeyri-müəyyən hisslərin ömrü az olur. Onunla həmsöhbət oluncaya qədər sürür. Və hiss olunmadan yerini başqa bir duyğuya verir. Heyrətə... Onun riyaziyyat, fizika, tarix, beynəlxalq münasibətlər, dilçilik, ədəbiyyata aid bilikləri, düşüncə genişliyi, dünyagörümü, mülahizələri bu sahələrin mütəxəssislərini belə heyran edir.

Onun dünya xalqlarının əsatir və əfsanələrinə, kosmoqoniya, klassik ədəbiyyata və mədəniyyətə aid bilik və mülahizələri şüurlarda yaranan "son dərəcə quru", yalnız rəqəmlər aləmində tərki-dünya yaşayan klassik riyaziyyatçı obrazından əsər-əlamət qoymur.

h. İsaxanlı ilə ünsiyyətdə olan hər bir kəs ondakı qeyri-adi cəhətləri sezir.

***Marianna B.Verner (Doktor, Los-Ançelesdəki Kaliforniya Universitəsinin Təhsil və İnformasiya Məktəbinin əməkdaşı, A B Ş)***

***"...Mən çox yerlərdə olmuişm və çox görmüşəm. Lakin sizin böyük zəhmət bahasına əldə etdiyiniz nailiyyətlər heç bir şeylə müqayisəyə gəlməz. Mən Sizinlə tanışlığı həyatımın qismət payı** hesab **edirəm".***

Həssasdır, şairanə və incəqəlblidir, musiqi, incəsənət və təbiət duyumu güclüdür. Bu barədə xüsusi söhbət açmır, çox danışmağı, təhlil aparmağı sevmir. Bu hisslər onun hərəkətlərində, söz, işarə və eyhamlarında, zövqündə, yumorunda, bu sahələrə sevgisində özünü göstərir. Özünəməxsus bədii-publisistik üslubu ilə üzə çıxan müxtəlif səpkili yazıları və nitqləri xüsusi maraq doğurur.

h.İsaxanlı öz xidmətlərindən söhbət açmağı xoşlamır, keçmiş uğurlarına qapanmır, bugünkü nailiyyətlərilə kifayətlənmir, daim yeniliyə, gələcəyə doğru boylanaraq, gələcəyi qurmağa, yaratmağa çalışır.

***Nijad Mikayılzadə (Dosent, Xəzər Universitəsi, Azərbaycan Dövlət Tibb Universitəsi):***

*Xəzər* ***Universitəsi zəmanəmizin*** *tələbindən yaranıb. Yeniliklərin uğur* ***qazanmasında şəxsiyyət böyük*** *rol* ***oynayır desəm,*** **Amerika *kəşf etmərəm. "Xəzər"* in *gələcəyini mən bilavasitə universitənin* rektoru, professor H. *İsaxanlı ilə bağlayıram.* O**, *erudisiyalı* **alim, *qabiliyyətli təşkilatçı, ən mühümü fövqəladə dərəcədə təvazökar və sadə*** *insan* ***xususiyyətlərini özündə birləşdirir. Çox sevindirici haldır ki, universitədə***

***xeyirxahlıq və qayğıkeşlik, insanlara həssas münasibət,*** *insanın* ***yaradıcılıq imkanlarının açılması və*** *çiçəklənməsi* ***üçün əlverişli mühit hökm sürür ".***

"hər gün, hər saat mükəmməlliyə doğru!" - Xəzər Universitəsinin fəaliyyəti barədə bir çıxışından götürülmüş bu qısa cümlədə h.İsaxanlının həyat devizi, əsas iş qayəsi olduqca bariz şəkildə öz əksini tapıb.

***Tomas Yanq***
***(Böyük Britaniyanın Azərbaycandakı səfiri):***

*''Rektor, professor İsaxanlının ağıllı rəhbərliyi altında kollektiv və tələbələr təhsildə təkmilləşmək üçün daim yeni yollar axtarırlar''.*

***Yezdi Bhada***
***(Doktor, Corciya Dövlət Universitəsi, Biznes idarəçiliyi proqramının direktoru, ABŞ):***

***"Mənim şübhəm yoxdur ki, Sizin rəhbərliyiniz altında "Xəzər " regionda ən yaxşı ali məktəbə çevriləcəkdir. Sizin ətraf gerçəkliyi başa düşməyiniz, məharətli əhbərliyiniz, iti mühakimələriniz uğur qazanmaq üçün əsas göstəricilərdir".***

Riyaziyyat sahəsində böyük uğurları ilə yanaşı tarix, təhsil, elmşünaslıq, elm tarixi, siyasət, din və dil tədrisi sahəsindəki əsərləri ilə ölkəmizdə və onun hüdudlarından kənarda tanınmışdır. Bir neçə yazılarının mövzusunu göstərməklə kifayətlənəcəyik: "Dünya təhsil təcrübəsi və onun gerçək oxunuşu", "Təhsilimiz yol ayrıcında", "Azərbaycan dili" (ingilisdillilər üçün dərslik), "Xarici dillər üzrə tədris planı və onun yeddi üzü", "Orta əsrlər müsəlman Şərqində geriləmə izləri", "Milli-azadlıq hərəkatları haqqında

düşüncələr”, “Mərkəzi Zaqafqaziyanın sovetləşməsi və kollektivləşməsi dövrünün ictimai-siyasi mənzərəsi və İsaxan üsyanı”, “Xəzərin sorağında”, “Yazıçı-tarixçi və “Xəmsə”yə çəkilmiş bə'zi miniatürlər haqqında və s.

Qulağımıza çatan bəzi xəbərlərə görə, h.İsaxanlı yeni tarixi və bədii-publisistik əsərlər üzərində işləyir (bu barədə onun özündən heç bir məlumat ala bilmədik, gülümsəməklə kifayətləndi).

H.İsaxanlının redaktorluq fəaliyyəti xüsusi diqqətəlayiqdir. Universitədə təşkil etdiyi çoxsaylı elmi konfrans materiallarının, iki elmi jurnalın (“Azerbaijani Studies - Azərbaycan araşdırmaları”, “Xəzər riyaziyyat jurnalı” - inciliscə), üçdilli “Xəzər-Vyu” qəzetinin redaktorudur. İki həmkarını - Azərbaycan və ingilis dili müəllimlərini cəlb edərək, ingilis dilində danışanlar üçün ünsiyyətə əsaslanan “Azərbaycan dili” kitabını hazırlamışdır. T.Svyatoçovskinin “Rusiya və Azərbaycan” əsərinin Azərbaycan dilinə tərcüməsinin redaktəsi, öz həmkarları ilə bərabər “Böyük ingiliscə-azərbaycanca sözlük” və “Böyük azərbaycanca-ingiliscə sözlük” kimi sanballı əsərlər üzərində çalı- şır. H.İsaxanlıdakı müxtəlif sahələr üzrə bir neçə dildə incə redaktəetmə bacarığı qibtəediləcək haldır.

Dərin düşüncə, nəzəriyyə, təcrübə, əməli iş, axtarış istəyi...

Alimə başucalığı gətirən nəcib məziyyətlər...

Tanrı Hamlet İsaxanlıdan bunların heç birini əsirgəməyib. Ömrünün ən yetkin, zəkalı çağlarını yaşayan alim dünəninə, bu gününə sevinclə, fəxarətlə nəzər salır. Arayır, axtarır, kəşf edir. Gələcəyə ümidlə, nikbinliklə baxır. İnanırıq ki, elmdə, təhsildə, quruculuqda seçdiyi xeyirxah, lakin çətin, keşməkeşli yol Hamlet İsaxanlını yeni uğurlara qovuşduracaq.

## *İŞİ SEVƏN, İŞƏ YARADICILIQ KİMİ BAXAN YORULDUM DEMƏZ, RUHDAN DÜŞMƏZ...*

(Hamlet İsaxanlının "Xəzər-Vyu" qəzetinin əməkdaşı Vahid Ömərova verdiyi müsahibə. 1 oktyabr 1997-ci il, № 32)

*-Hamlet müəllim, Siz ölkəmizdə və ondan uzaqlarda həm görkəmli riyaziyyatçı, həm də görkəmli elm-təhsil təşkilatçısı kimi tanınırsınız. Bəs özünüz özünüzü necə qəbul edirsiniz? Riyaziyyatçı alim kimi planlarınız nədir? Elmi yaradıcılığamı, yoxsa universitə quruculuğunamı üstünlük verirsiniz?*

-Universitə quruculuğuna başlamazdan əvvəl mənim çalışma və araşdırmalarım əsasən riyaziyyatla bağlı olub. Azərbaycan Dövlət Universitəsinin (indiki Bakı Dövlət Universitəsinin) mexanika-riyaziyyat fakültəsini bitirdikdən sonra Moskvada, Bakıda və keçmiş SSRİ-nin digər şəhərlərində. Eləcə də bir sıra xarici ölkələrdə tədqiqatlarla məşğul olmuşam. "Kəlləmi bərkidən" və məni alim kimi az-çox formalaşdıran, qəlbimə fərəh bəxş edən ideya, işıq riyaziyyat olub. O dövrdə əsas fəaliyyət dairəm əldə etdiyim elmi nəticələrlə müxtəlif ölkələrdə konfranslarda iştirak etmək, elmi jurnallarda məqalələr çap etdirməkdən ibarət idi. Riyazi monoqrafiyalar və dərsliklər üzərində də işləyirdim.

Bir zamanlar isə universitə yaratmaq barədə də düşünməyə başladım. Bu, o qədər vaxt aparan, diqqət və zəhmət tələb edən bir iş oldu ki, riyazi tədqiqatlara vaxtım çox az qaldı. Amma Xəzər Universitəsinin həyatıma möhkəm daxil olmasına baxmayaraq, mən riyaziyyatçı kimi də fəaliyyətimi heç cür

dayandırmaq istəmirəm. Riyazi tədqiqatlarımın zəifləməsi mənə çox əziyyət verir.

